Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 160 (8183) CÜMƏ AXŞAMI, 25 iyul 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# 7 layihə, 20 milyon manat investisiya

## İlham Əliyevin modern sənayeləşmə siyasətinin növbəti töhfəsi - Sabirabad Sənaye Məhəlləsi bu il istifadəyə veriləcək

Bu gün sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər innovativ müəssisələrin yaradılmasına, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın azaldılmasına yeni imkanlar açır. Bu baxımdan müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafının təmin edilməsi, bu sahəyə sahibkar marağının artırılması və daha çox investisiyanın cəlb edilməsi, istehsal sahəsində məşğulluğun yüksəldilməsi vacib amillərdir.

Yaradılan sənaye parkları və məhəllələri kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir. Hazırda Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Pirallahı Sənaye parkları, Sumqayıt Texnologiya Parkı, Yüksək Texnologiyalar Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı, Neftçala, Masallı Sənaye məhəllələri fəaliyyət göstərir.

### Sənayenin inkişafına dəstək

Prezident İlham Əliyevin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli fərmanı ilə müəyyən edilmiş vəzifələrin icrası sayəsində ölkədə sənaye məhəllələrinin yaradılması davamlı prosesə çevrilib. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi modeldir.

2014-cü ilin oktyabr ayından etibarən sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi dövlət başçısı tərəfindən İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə həvalə edilib.

Sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə tapşırılıb. Artıq dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastruktur yaradılmış Neftçala və Masallı sənaye məhəllələri fəaliyyətdədir, Hacıqabul Sənaye Məhəlləsində işlər yekunlaşıb. Sabirabad Sənaye Məhəlləsində son tamamlama işləri aparılır. Fəaliyyətdə olan sənaye məhəllələrində indiyədək 33 milyon manatlıq məhsul istehsal edilib. Bu sənaye məhəllələrində qeydiyyatdan keçmiş iştirakçıların sayı 36 olmaqla ümumilikdə, 140 milyon manata yaxın investisiya yatırılması, 2 minədək iş yerinin yaradılması nəzərdə tutulur. Müəssisələrin 21-i artıq fəaliyyət göstərir. Bu il daha 15 müəssisə fəaliyyətə başlayacaq.

İnvestisiya dəyəri 61,43 milyon manat olan Hacıqabul Sənaye Məhəlləsinin istehsalat korpusları icarəyə götürülüb. Sabirabad Sənaye Məhəlləsi də demək olar hazırdır. Sahəsinə görə indiyədək tikilən məhəllələrdən ən böyüyü olan bu müəssisədə son tamamlanma işləri gedir.

İqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə müsahibəsində bildirib ki, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilə bağlı görülən işlər artıq yekun mərhələyə çatıb. Hər iki sənaye məhəlləsi ilin sonunadək istifadəyə veriləcək.

### 4 istehsalat sahəsi, inzibati, texniki və köməkçi binalar

Sabirabad rayonunun ərazisinin bir hissəsi Kür çayının sağ sahilində - Muğan düzündə, bir hissəsi Kürün sol sahilində - Şirvan düzündə, bir hissəsi də Araz çayının sol sahilində - Mil düzündə yerləşir. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı və sənaye təşkil edir. Yeni yaradılan sənaye məhəlləsi sənayenin inkişafına mühüm töhfə verəcək.

"Azərbaycan İnvestisiya Şirkəti"nin sənaye məhəllələri şöbəsinin müdiri Eldəniz Novruzov deyir ki, Sabirabad Sənaye Məhəlləsinin təməli 2017-ci il noyabrın 28-də dövlət başçısı tərəfindən qoyulub.

Tikintiyə 200 nəfərdən çox işçi cəlb edilib. Məhəllənin ümumi sahəsi 20,3 hektardır. Tikinti sahəsi 15 min 797 kvadratmetr təşkil edir. Binaların ümumi sahəsi 12 min 872 kvadratmetrdir. Burada hər biri 1305 kvadratmetr olan 4 istehsalat sahəsi inşa edilib.

Ardı 6-cı səh.

# Kosmik sənaye ölkəmizdə prioritet sahələrdən biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, Fransa Kosmik Agentliyinin rəhbəri Jan-İv Lö Qalı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilən uğurlar qeyd olundu, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirildi, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirildi və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulandı.

Söhbət zamanı Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kosmik sənaye sahəsində uğurla inkişaf etdiyi bildirildi, eyni zamanda, ölkəmizin Beynəlxalq Astronavtika Federasiyası ilə də əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olundu.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri zati-aliləri cənab Boris Consona

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Bu mənada qarşılıqlı səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

Neft-qaz hasilatı və nəqli sahəsindəki əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Enerji sektorunda uzun illərdən bəri müvəffəqiyyətlə davam edən birgə fəaliyyətimiz, gerçəkləşdirdiyimiz irimiqyaslı transmilli layihələr qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfədir.

İnanıram ki, qarşılıqlı maraqlarımıza uyğun olaraq Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafı istiqamətində Sizinlə birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*




# 9-cu qızıl medal

## Cüdoçular medal estafetini davam etdirirlər

Son illər Azərbaycanda idman sahəsində qazanılan uğurlar bu sahəyə göstərilən yüksək diqqət və qayğının nəticəsidir. Azərbaycanda beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarına qatılaraq layiqli nəticələr göstərirlər.



Avropa Gənclərinin XV Yay Olimpiya Festivalında idmançılarımız hər gün medal sayını artırmaqla xalqımızı sevindirməkdə davam edirlər. İlk yarış günlərində 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) qazanan güləşçilərimizin zəfər estafetini Festivalın 4-cü yarış günündə cüdoçularımız davam etdiriblər.

Heydər Əliyev adına İdman Sarayında keçirilən 40 ölkədən 297 cüdoçunun qatıldığı yarışda Azərbaycan 4 qız və 8 oğlan idmançı ilə təmsil olunur.

Dünən qadınların yarışında 40 kq, 44 kq və 48 kq, oğlanların mübarizəsində isə 50 kq, 55 kq və 60 kq çəki dərəcələrində qaliblərin adına aydınlıq gəlib. İlk yarış günündə Azərbaycan millisinin 4 üzvü tatami üzərinə çıxıb və 1 qızıl, 2 bürünc medal qazanıblar.

60 kq çəki dərəcəsində çıxış edən Turan Bayramov debütdə Adam Saferi (Avstriya) 20 saniyəyə ippona salıb. O, ardınca Mikos Tontinidisi də məğlub etməyə cəmi 13 saniyə vaxt sərf edib.

Ardı 5-ci səh.

# AKİA fermerlərin yaxın köməkçisinə çevrilir

## Prezident İlham ƏLİYEV: "Azərbaycan fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir"

Son dövrlər aqrar sektorda aparılan islahatlar müsbət nəticəsini verir. Belə ki, ildən-ilə kənd təsərrüfatı məhsullarının istehsalı artır və ölkənin ixrac potensialında onların payı çoxalır. Xüsusilə ənənəvi sahələrin - pambıqçılığın, tütünçülüyün, baramaçılığın, üzümçülüyün, çəltikçiliyin, fındıqçılığın və xurma istehsalının bərpasının bu uğurlarda əhəmiyyətli rolu var. Digər tərəfdən, tərəvəzçiliyin, xüsusilə istixanalarda yetişdirilən məhsulların artımı da ixracın yüksəlməsinə imkan yaradır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında aqrar sektorun ölkə üçün önəmini qeyd edərək demişdir: "Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir... Bu sahədə aparılan islahatlar, əminəm ki, daha böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, indiki 3,6 faiz artım bizim potensialımızı əks etdirmir... Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahələrində görülən işlər ixracımızı böyük dərəcədə artırır".

Dövlət başçısı iclasda həmçinin qeyd etdi ki, kənd təsərrüfatı texnoloji sahəyə çevrilməlidir və burada yeni texnika və mexanizmlərdən istifadə edilməlidir. Məqsəd bu yolla məhsuldarlığı daha da artırmaqdır. Təkcə keçən il 5800 kənd təsərrüfatı texnikası alınıb. Ötən illərin bəzilərində isə alınan kənd təsərrüfatı texnikasının sayı 8-9 min ədəd təşkil edib.

Müasir texnika və texnologiyalardan kənd təsərrüfatında fəaliyyət göstərən fermerlərin əksəriyyəti istifadə edir. Ancaq ən çox texnika və texnologiyalardan istifadə edənlər iri fermer təsərrüfatları və aqroparklardır. Nəzərdə tutulan proqram üzrə ölkədə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Hazırda 104 min hektara sahib olan 17 aqropark fəaliyyət göstərir. Ümumilikdə isə bütün aqroparkların 200 min hektara yaxın əkin sahəsi olacaq. Dövlət bu aqroparkların yaradılmasına dəstək verir. Fəaliyyəti nəzərdə tutulan 31 aqropark üçün 2,2 milyard manat vəsait xərclənəcək. Mütəxəssislərin hesablamalarına görə, təkcə bu iri kənd təsərrüfatı müəssisələri tərəfindən il ərzində 800 milyon və ya 1 milyard manat dəyərində məhsul istehsal ediləcək.

Dövlət fermerlərə kömək göstərmək məqsədilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyini (AKİA) yaradıb. Həmin qurumun verdiyi illik hesabatda AKİA-nın il ərzində gördüyü işlər - kredit portfeli məsələləri, damazlıq, kənd təsərrüfatı texnikasının satışı və digər işlər barədə məlumat verilib.

AKİA-nın məlumatına görə, cari ilin əvvəlindən etibarən lizinq fəaliyyəti ilə bağlı yeniliklər qeydə alınıb. Əvvəllər heyvanların, kənd təsərrüfatı texnikasının satışı lizinq fəaliyyəti ilə həyata keçirilirdisə, indi bu proses fermerlərin istədikləri təchizatçını seçə bilməsilə fərqlənir.

Ardı 4-cü səh.

# 2500 illik qardaşlıq

## Dağ yəhudiləri özlərini Azərbaycanda heç vaxt yad hesab etməyiblər

"Bir müddət əvvəl Amerikanın "Time" qəzetinin müxbiri Azərbaycana gəlmişdi. Mən onu Qubadakı Qırmızı Qəsəbədə müşayiət etməli oldum. Biz Qırmızı Qəsəbədə sinaqoqda olan zaman çayın digər sahilində olan məsciddən azan səsi yüksəldi. Bunu eşidən zaman müxbir o qədər təəccübləndi ki... Tez bayıra çıxıb, azanın səsini diktofona yazmağa, fotolar çəkməyə başladı. Mənə sual verdi ki, axı bu, necə ola bilər - orada müsəlman azanı, burada yəhudi ibadəti?! Dedim, xanım, bu, sizin üçün təşkil olunan bir hadisə deyil, burada hər gün həyat belə davam edir..."

### Sadiq dostlar

Bunu Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev bizimlə söhbəti zamanı danışdı. Elə bu fakt Azərbaycanda mövcud olan tolerantlıq və multikultural mühitin var olmasının bariz nümunələrindən sadəcə biridir. Tarixən Azərbaycanda yaşayan xalqlar arasında heç bir dini, milli, irqi ayrı-seçkilik olmayıb və bu multikultural ənənələr bu gün də var olmaqda, yaşamaqdadır. Dövlət tərəfindən də ölkəmizdə yaşayan milli azlıqlara, digər millətlərin nümayəndələrinə daim diqqət və qayğı göstərilir. Azərbaycanı hələ eramızdan əvvəl özünə məskən seçmiş belə xalqlardan biri də dağ yəhudiləridir.

Ardı 6-cı səh.



# “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508 nömrəli və 29 mart tarixli 1550-VQD və 1552-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2.0.18-1-ci maddə əlavə edilsin:

“2.0.18-1. təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi;”;

1.2. 22.0.5.1-ci maddəyə “məktəbəqədər” sözündən əvvəl “dövlət məktəbəqədər təhsil müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin;

1.3. 22.0.5.2-ci maddəyə “ümumi” sözündən əvvəl “dövlət ümumi təhsil müəssisələri istisna olmaqla,” sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

**“Maddə 32-1. Təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 32-1.1. məktəbəqədər təhsil müəssisələri | 2000 manat |
| 32-1.2. ümumi təhsil müəssisələri | 5000 manat |
| 32-1.3. məktəbdənkənar təhsil müəssisələri | 5000 manat |
| 32-1.4. peşə təhsili müəssisələri | 10000 manat |
| 32-1.5. orta ixtisas təhsili müəssisələri | 12000 manat |
| 32-1.6. ali təhsil müəssisələri | 20000 manat |
| 32-1.7. əlavə təhsil müəssisələri | 12000 manat |
| 32-1.8. təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr | 12000 manat |

**Maddə 2.** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409; № 11, maddə 2208; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.38-ci maddədə “baza ali” sözləri “əsas (baza ali)” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 14.17-1-ci maddə əlavə edilsin:

“14.17-1. Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələri “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nə qoşulmalıdırlar.”;

2.3. 16.1-ci maddə üzrə:

2.3.1. birinci cümlədə “müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya)” sözləri “lisenziya” sözü ilə əvəz edilsin;

2.3.2. ikinci cümlədə “xüsusi razılıq (lisenziya)” sözləri “lisenziya” sözü ilə əvəz edilsin;

2.4. 16.5-ci maddədə “xüsusi razılıq (lisenziya)” sözləri “lisenziya” sözü ilə əvəz edilsin;

2.5. 22.8-ci maddədən “və elmi-pedaqoji” sözləri çıxarılsın;

2.6. 24.4-cü maddədə “xüsusi razılıq” sözləri “lisenziya” sözü ilə əvəz edilsin;

2.7. 26.1-ci maddədə “26.5-ci maddəsində” sözləri “26.5-ci və 26.5-3-cü maddələrində” sözləri ilə əvəz edilsin;

2.8. 26.1-1-ci maddədə “baza ali” sözləri “əsas (baza ali)” sözləri ilə əvəz edilsin;

2.9. 29.0.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

“29.0.11. “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”, “Tələbə-məzun” və “Şagird-məzun” dövlət elektron məlumat sistemlərini yaratmaq və onlardan istifadəni təmin etmək;”;

2.10. 29.0.12-ci maddədən “və proqramlarını (kurrikulumlarını)” sözləri çıxarılsın;

2.11. 30.2-ci maddəsinin birinci cümləsində “orqanı” sözü “orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

2.12. 31.0.1-ci maddəyə “doktorantlar,” sözündən sonra “adyunktlar” sözü əlavə edilsin;

2.13. 32.3.15-ci maddəyə “ümumi təhsil” sözlərindən sonra “peşə təhsili” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# Azərbaycan Respublikasında gənclərlə iş və idman sahəsində çalışan şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda gənclərlə iş sahəsində səmərəli fəaliyyətlərinə, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Rəhimov Azad Arif oğlu

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Babayev İntiqam Vaqif oğlu
İsmayılov İsmayıl Sultan oğlu

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Hacıyev Fərhad Məcid oğlu
Həsənov Rüfət Elman oğlu

**“Tərəqqi” medalı ilə**

Abbasov Raqif Arif oğlu
Əhmədov Vüqar Fərman oğlu
Muxtarov Ramiz Məcid oğlu
Tağıyeva Gülgəz Əbülfəz qızı

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Bağırov Anar Qurban oğlu
Eyvazov Tofiq Baba oğlu
Nəcəfova Afaq Sabir qızı
Əfəndiyeva - Xəlilova Aysu Elçin qızı
Əliməmmədov Süleyman Xalid oğlu
Gözəlov Azad Mikayıl oğlu
Hüseynov Fikrət Akif oğlu
İbrahimov Taleh Məmməd oğlu
Quliyev Azər Əli oğlu
Quliyev Nadir Tahir oğlu
Quliyev Sənan Səfər oğlu
Nuxbalayev Mustafa Ədalət oğlu
Manafov Camal Zülfüqar oğlu
Məmmədov Nadir Əmrulla oğlu
Məmmədova Mətanət Tahir qızı
Mirzəyev Əliniyaz Nüsrət oğlu
Mühəmmədova Kamila Eldar qızı
Rəcəbova Fidan Mübariz qızı
Səfərov İlham İlyas oğlu
Soltanov Fəxri Elxan oğlu
Surtayeva Larisa Petrovna
Tağıyeva Cəmilə Allahverdi qızı
Vəliyev Gündüz Əli oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# Növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparacaqlar.

# “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7 (I kitab), maddə 1442, № 12 (I kitab), maddə 2525; 2019, № 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 106-cı maddə üzrə:

1.1.1. birinci hissəyə “məbləğdə” sözündən sonra “aylıq” sözü və “edilir” sözündən sonra “və onlara bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir” sözləri əlavə edilsin;

1.1.2. birinci hissənin ikinci abzasında “2280 manat” sözləri “Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşı” sözləri ilə əvəz edilsin;

1.1.3. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

“Səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün hakimlərə vəzifə maaşının 25 faizi miqdarında vergidən azad olunan aylıq pul təminatı verilir.”;

1.2. 107-ci maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və həmin hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Hakimlərə məzuniyyətə çıxdığı vaxt məzuniyyət haqqı və iki aylıq əmək haqqı məbləğində müavinət verilir. Məzuniyyət haqqının hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.”.

**Maddə 2.** Bu Qanun 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1647-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1647-VQD nömrəli Qanununun 2019-cu il sentyabrın 1-dən qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 107-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsinə uyğun olaraq məzuniyyət haqqının hesablanması qaydasını üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 107-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 107-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2019-cu il*

# “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1620-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1620-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət rüsumu haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. “Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 1654 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 718; 2015, № 2, maddə 145) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

**Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikası Vergilər Nazirliyinin STRUKTURU

1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Aparatı (baş idarələr, idarələr, şöbələr və bölmələr).
2. Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturuna daxil olan qurumlar:
2.1. Milli Gəlirlər Baş İdarəsi;
2.2. Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsi;
2.3. İdxal-İxrac Əməliyyatları üzrə Nəzarət Baş İdarəsi;
2.4. Aksizli və Markalanmalı Malların Dövriyyəsinə Nəzarət Baş İdarəsi;
2.5. Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi;
2.6. Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarə;
2.7. Çağrı Mərkəzi (baş idarə səlahiyyətli);
2.8. yerli bölmələr (baş idarələr, idarələr və şöbələr).

# Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin oktyabr ayında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yarandığı vaxtdan etibarən klassik ənənələrə əsaslanmaqla yanaşı, müasir səhnə mədəniyyətinin zirvələrinə doğru inamla irəliləyərək qısa müddətdə zəngin inkişaf yolu keçmişdir. Ötən dövr ərzində görkəmli nailiyyətlər qazanan Teatr xalqın ədəbi sərvətinə çevrilmiş və ölkənin ictimai-mədəni həyatında layiqli mövqe tutmuşdur.

Sənətsevərlər Azərbaycan dramaturgiyasının bütün diqqətəlayiq nümunələri ilə məhz Akademik Milli Dram Teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişlər. Milli Dram Teatrı, eyni zamanda, dünya dramaturji irsində fəxri yer tutan və ümumbəşəri ideallar ifadə edən qiymətli əsərləri səhnələşdirməklə Azərbaycan səhnə sənətinin dünya mədəniyyəti ilə daha da yaxınlaşmasında fəal rol oynamışdır. Teatrın səhnəsində bədii-estetik dəyəri ilə seçilərək uzun illər repertuardan düşməyən və böyük uğurla nümayiş etdirilərək tamaşaçı yaddaşında silinməz iz qoyan həmin əsərlər ölkə teatrı salnaməsinin parlaq səhifələrini təşkil edir.

Milli Dram Teatrında Azərbaycan səhnəsinin ən qüvvətli aktyorlar nəsli yetişmişdir. Mirzəağa Əliyev, Mərziyyə Davudova, Ələsgər Ələkbərov, Adil İsgəndərov, Hökümə Qurbanova, İsmayıl Osmanlı, Fatma Qədri, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Məmmədrza Şeyxzamanov, Həsənağa Turabov və digər qüdrətli sənətkarların Teatrın səhnəsində misilsiz ustalıqla canlandırdıqları çox sayda koloritli, mükəmməl obrazlar Azərbaycan mədəniyyəti və teatrı tarixinə qızıl xətlə yazılmışdır.

Teatrın səhnə həyatı verdiyi mütərəqqi ideyalı əsərlərin cəmiyyətdə yüksək mənəvi keyfiyyətlərin təlqin olunması və estetik zövqün formalaşdırılmasında, xüsusən gənc nəslin vətənpərvərlik və əxlaqi dəyərlərə bağlılıq ruhunda tərbiyəsində mühüm rolu vardır. Teatr, həmçinin beynəlxalq festivallardakı çıxışları ilə ölkənin mədəni nailiyyətlərinin təbliğində yaxından iştirak etmişdir. Hazırda öz inkişafının yeni mərhələsinə qədəm qoymuş Teatr Azərbaycanın özünəməxsus teatr ənənələrinin qorunub saxlanılmasında və dövlətin mədəniyyət siyasətinin gerçəkləşdirilməsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni həyatının əlamətdar hadisəsi kimi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Teatr Xadimləri İttifaqının təkliflərini nəzərə almaqla, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2493) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.2-ci maddədə "3.037.618.152,0" rəqəmləri "3.187.618.152,0" rəqəmləri ilə əvəz edilsin.
2. 8.2.4-cü maddədə "1.383.753.312,0" rəqəmləri "1.533.753.312,0" rəqəmləri ilə əvəz edilsin.
3. 8.6-cı maddədə "2.620.387.016,0" rəqəmləri "2.470.387.016,0" rəqəmləri ilə əvəz edilsin.
4. 8.6.1-ci maddədə "2.577.355.340,0" rəqəmləri "2.427.355.340,0" rəqəmləri ilə əvəz edilsin.
5. 8.6.1.1-ci maddədə "1.502.732.410,0" rəqəmləri "1.352.732.410,0" rəqəmləri ilə əvəz edilsin.
6. 16-cı maddədə "27 155 796,1" rəqəmləri "27 370 796,1" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1645-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1645-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2588; 2019, № 1, maddə 71, № 5, maddə 866; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 644 nömrəli və 19 aprel tarixli 653 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə "3 037 618 152,0" rəqəmləri "3 187 618 152,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 1.2.4-cü yarımbənddə "1 383 753 312,0" rəqəmləri "1 533 753 312,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 1.2.4.2-ci yarımbənddə "1 380 376 500,0" rəqəmləri "1 530 376 500,0" rəqəmləri ilə əvəz edilsin;

2.4. 1.6-cı bənddə "2 620 387 016,0" rəqəmləri "2 470 387 016,0" rəqəmləri ilə əvəz edilsin;

2.5. 1.6.1-ci yarımbənddə "2 577 355 340,0" rəqəmləri "2 427 355 340,0" rəqəmləri ilə əvəz edilsin;

2.6. 1.6.1.4-cü yarımbənddə "1 502 732 410,0" rəqəmləri "1 352 732 410,0" rəqəmləri ilə əvəz edilsin;

2.7. 6.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.7-ci bənd əlavə edilsin:

"6.7. ortamüddətli dövr üçün elektron mühasibatlığın tətbiqinin genişləndirilməsinə dair tədbirlər planının layihəsini 2019-cu il noyabrın 1-dək hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.".

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2494) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsinin gəlirləri 4128 104 000,0 manat, xərcləri 4128 104 000,0 manat məbləğində təsdiq edilir.".

2. 2-ci maddə üzrə:

2.1. 1-ci hissədə "2419371590,0" rəqəmləri "2769371590,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 1.1-ci bənddə "811687000,0" rəqəmləri "963200000,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 1.2-ci bənddə "110684590,0" rəqəmləri "131345450,0" rəqəmləri ilə əvəz edilsin;

2.4. 1.3-cü bənddə "1497000000,0" rəqəmləri "1674826140,0" rəqəmləri ilə və "65000000,0" rəqəmləri "69000000,0" rəqəmləri ilə əvəz edilsin;

2.5. 3-cü hissədə "1502732410,0" rəqəmləri "1352732410,0" rəqəmləri ilə əvəz edilsin.

3. 3-cü maddə üzrə:

3.1. 1-ci hissədə "3834944000,0" rəqəmləri "4020444000,0" rəqəmləri ilə əvəz edilsin;

3.2. 1.1-ci bənddə "3743000000,0" rəqəmləri "3918400000,0" rəqəmləri ilə əvəz edilsin;

3.3. 1.2-ci bənddə "91944000,0" rəqəmləri "102044000,0" rəqəmləri ilə əvəz edilsin;

3.4. 1.2.1-ci yarımbənddə "24628000,0" rəqəmləri "26000000,0" rəqəmləri ilə əvəz edilsin;

3.5. 1.2.2-ci yarımbənddə "29716000,0" rəqəmləri "31944000,0" rəqəmləri ilə əvəz edilsin;

3.6. 1.2.3-cü yarımbənddə "7200000,0" rəqəmləri "9500000,0" rəqəmləri ilə əvəz edilsin;

3.7. 1.2.5-ci yarımbənddə "17000000,0" rəqəmləri "21200000,0" rəqəmləri ilə əvəz edilsin;

3.8. 3-cü hissədə "22500000,0" rəqəmləri "23000000,0" rəqəmləri ilə əvəz edilsin;

3.9. 4-cü hissədə "49000000,0" rəqəmləri "63000000,0" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1646-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1646-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2495) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddədə hər iki halda "83 451 400,0" rəqəmləri "98 451 400,0" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 3. | İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin icrası nəticəsində yaranmış qalıq vəsait | 15 000 000,0" |

3. 3-cü maddə üzrə:

3.1. 2-ci hissədə "1 800 000,0" rəqəmləri "2 800 000,0" rəqəmləri ilə əvəz edilsin;

3.2. 6-cı hissədə "42 041 400,0" rəqəmləri "56 041 400,0" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1651-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1651-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2019-cu il*

# Müdafiə naziri cəbhəboyu zonada yeni hərbi obyektin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələri yoxlamaq məqsədilə cəbhəboyu zonada səfərdədir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirliyin rəhbər heyəti Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Müdafiə naziri bölmələrdən birinin şəxsi heyəti üçün inşa edilən yeni yaşayış kompleksinin açılışında iştirak edib. Nazirə məruzə olunub ki, yaşayış kompleksi qaz, su, işıq və lazımi kommunikasiya xətləri, həmçinin yeni mebel dəstləri ilə təchiz edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, döyüş texnikası üçün saxlanc, avtopark, silah otağı, ideoloji otaq, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirdikdən sonra şəxsi heyətlə birlikdə nahar edib.

Sonra Müdafiə naziri qoşunların təmas xəttinə yaxın kəndlərdən birində yaşayan, Aprel döyüşləri zamanı şəhid olmuş Orxan Həmidovun ailəsini ziyarət edib. Görüşdə şəhid ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışılıb, Azərbaycanın Prezidenti və Birinci vitse-prezidentinin bu istiqamətdə atdığı bütün addımlara və qəbul edilən qərarlara görə dərin minnətdarlıq ifadə olunub.

Şəhidin anası Tamilla xanım ailəsinə dövlət başçısı tərəfindən göstərilən diqqətə və Müdafiə naziri adından təqdim edilən hədiyyələrə görə təşəkkür edərək bildirib ki, hərbi qulluqçuların köməyi ilə oğlunun ailəsinin yaşadığı həyətə su çəkilərək "Orxan bulağı" inşa edilib.

Çay süfrəsi ətrafında davam edən söhbət zamanı şəhidin ailə üzvləri Azərbaycan Ordusunun qüdrətinə və qələbəsinə inamın böyük olduğunu qeyd edərək qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrinin bölmələrimiz tərəfindən etibarlı müdafiə olunduğunu və əhalinin hərbçilərimizə yüksək etimad göstərdiyini bildiriblər.

Cəbhəboyu zonaya səfər çərçivəsində Müdafiə Nazirliyi rəhbərliyinin keçirdiyi görüşlərdə Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev və Milli Məclisin deputatı Aqil Abbas da iştirak ediblər.

# Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bakı Limanının fəaliyyəti ilə tanış olub

İyulun 24-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Çin əlaqələrinin yüksələn inkişafından söz açıb. Bildirib ki, Azərbaycan ilə Çin arasında bütün sahələrdə yüksək səviyyədə əməkdaşlıq mövcuddur. 2015-ci il dekabrın 9-11-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri zamanı hər iki ölkə arasında imzalanan 10 sənəd qarşılıqlı dostluq əlaqələrinin bariz nümunəsidir. Bu sənədlər içərisində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu"nu xüsusi qeyd etmək olar. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulan ilk ölkələrdəndir. Həmçinin bu ilin aprelində isə Prezident İlham Əliyev "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirak üçün Çinə rəsmi səfər edib. Səfər Azərbaycan ilə Çin əməkdaşlığının daha da genişlənməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Çinin Sian şəhərindən yola düşən blok qatarının iyulun 6-da Bakıya çatdığını xatırladan nazir iki ölkənin iqtisadi cəhətdən möhkəm əlaqələrə malik olduğunu deyib. Qeyd edib ki, ötən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 1 milyard 300 milyon dollardan çox olub. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Ölkəmiz Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərin üzərində yerləşməklə geniş tranzit imkanı yaradır.

"Azərbaycan və Çin partiyaları arasında da əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Parlamentlərarası dostluq münasibətləri mövcuddur. İqtisadi sahədə əlaqələrimiz genişlənir. Azərbaycanın böyük potensialı var. Çin şirkətləri üçün burada əlverişli biznes mühiti mövcuddur. Çin şirkətləri ilə görüşlər keçirilir, yeni investisiyalar üçün bütün imkanlar yaradılır. Gələcəkdə ticarət dövriyyəsinin, qarşılıqlı investisiyaların qoyuluşunun daha da artacağına inanırıq", - deyə nazir Ş.Mustafayev vurğulayıb.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao ölkəsinin Azərbaycan ilə əməkdaşlığından məmnun olduğunu diqqətə çatdırıb. İki ölkə arasında iqtisadi əlaqələrdən danışan qonaq Azərbaycanın kənd təsərrüfatı məhsullarının Çinə idxalında maraqlı olduqlarını söyləyib. Bildirib ki, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlıq daha da genişlənəcək. Qarşılıqlı investisiyaların qoyuluşu, iqtisadi əlaqələr növbəti illərdə ticarət dövriyyəsini daha da artıracaq. Çin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıq etməkdə maraqlıdır.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov yeni Bakı Limanının fəaliyyəti, iş prinsipi barədə qonağı məlumatlandırıb. Bildirib ki, nəqliyyat dəhlizləri üzrə ölkəyə daxil olan yüklər yeni liman kompleksində toplanır, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınır. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazidə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

Limanın keçdiyi tarixi dövrdən və hazırda gördüyü işlərdən söz açan baş direktor Bakıda yerləşən bir çox şirkətlərin daşımaları bu liman vasitəsilə həyata keçirdiklərini söyləyib. Qeyd edib ki, hazırda qeyri-neft sektorunun inkişafına və logistika sahəsinə göstərilən diqqət nəticəsində bu limanın əhəmiyyəti daha da artıb. Müasir texnoloji həllərin tətbiq olunduğu limanda professional işçi kollektivinin formalaşması istiqamətində atılan addımları da qonağın diqqətinə çatdırıb.

T.Ziyadov qeyd edib ki, liman Çin hökuməti ilə yaxından əməkdaşlıq edir, keçən il 34 ədəd yükqaldırıcı və yüknəqledici avadanlıqlar (avtoyükləyicilər, teleskopik konteyner yükləyicisi, çətin relyefli kran və sair) quruma hədiyyə olunub. Bundan başqa, son 2 ildə 30-dək liman əməkdaşı Çində qısa və uzunmüddətli təlimlərdə iştirak edib, hazırda iki əməkdaş magistratura təhsili almaqdadır.

Sonra qonaq limanda yaradılan infrastrukturla tanış olub.

İqtisadiyyat naziri Ş.Mustafayev məlumat verib ki, liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Növbəti mərhələdə liman 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yükaşırma imkanına malik olacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# AKİA fermerlərin yaxın köməkçisinə çevrilir

## Prezident İlham ƏLİYEV: "Azərbaycan fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir"



*Əvvəli 1-ci səh.*

Bu da bürokratik əngəlləri, insan faktorundan qaynaqlanan neqativ halları aradan qaldırır.

AKİA təkcə fermerlərə kənd təsərrüfatı texnikası satmaq və kredit verməklə işlərini bitmiş saymır. Qurum, həmçinin fermerlərə öz işlərini qurmaqda da kömək edir. Bu məqsədlə agentlik cari ilin ilk yarısında 719 fermerin 82,05 milyon manat dəyərində aqrobiznes layihələrini dəstəkləyib.

Hesabatda fermerlərə güzəştli kreditlərin verilməsi prosesi yüksək qiymətləndirilib. Həyata keçirilən tədbirlər nəticəsində fermerlərin işlərini daha rahat şəkildə qurmasına şərait yaranıb. Bunun sayəsində onların cari ildə 120 milyon manat məbləğində kredit alacağı proqnozlaşdırılır. Bu rəqəm ötən ilin ikinci yarımilliyində 11 milyon manata yaxın olmuşdur.

Kənd təsərrüfatı istehsal vasitələrinin satışı sahəsində də agentlik uğurlu nəticələrə nail olub. Belə ki, dövlətin dəstəyi ilə 70,7 milyon manat məhsul satılaraq 12 faiz artım əldə edilib. Cari ildə agentlik tərəfindən fermerlərə 316 traktor, 980 digər kənd təsərrüfatı məhsulları satılıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# TANAP daha bir beynəlxalq mükafata layiq görülüb

TANAP sosial və ətraf mühit üzrə investisiya proqramlarına (SEIP) görə mərkəzi ofisi Böyük Britaniyada yerləşən "The International CSR Excellence Awards" təşkilatı tərəfindən "Davamlılıq" kateqoriyasında mükafatlandırılıb.




TANAP "Saudi Aramco", "Shell", "Warner Bros" və "Coca-Cola" kimi şirkətlərin də aldığı bu mükafat ilə beynəlxalq səviyyədə qazandığı uğurlarına daha bir uğur əlavə edib. Həmçinin TANAP bu mükafatla noyabrın 25-də Londonda keçiriləcək Korporativ Sosial Məsuliyyət üzrə Dünya Liderləri tədbirində "dünya lideri" kimi iştiraka dəvət olunub.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlayıb. Türkiyə bu vaxtadək TANAP-la 2 milyard kubmetrədək Azərbaycan təbii qazı alıb. Cari ilin sonunadək isə bu həcm 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Layihə üzrə kapital xərcləri 8 milyard dollardır və bu vaxtadək TANAP-a təqribən 6 milyard dollar xərclənib.

TANAP Ardahanın Posof qəsəbəsindən başlayaraq Türkiyə ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru xəttidir. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir.

# Bakı-Tbilisi-Qars dəmir yolu ilə Türkiyədən Gürcüstana ilk yük qatarı yola salınıb

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə Türkiyədən ixrac məhsullarını Gürcüstana aparan ilk yük qatarı Ərzurumdan yola düşüb.



AZƏRTAC xəbər verir ki, bu münasibətlə rəsmi yolasalma mərasimi təşkil olunub. Qatar Ərzurumdakı "Palandökən" Logistika Mərkəzindən yola salınıb.

Mərasimdə qeyd edilib ki, il ərzində BTQ ilə Gürcüstana 120 min ton dəmir məhsullarının daşınması planlaşdırılır.

# Milli Yaylaq Festivalına hazırlıq işləri yekunlaşıb

Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə iyulun 26-dan 28-dək ilk dəfə olaraq Gədəbəy rayonunda keçiriləcək Milli Yaylaq Festivalı üçün hazırlıq işləri başa çatıb.

Festival Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), "Cavadxan" Tarix və Mədəniyyət Fondu, Gədəbəy Rayon İcra Hakimiyyətinin birgə tərəfdaşlığı ilə həyata keçirilir.

Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə yanaşı, digər dövlət qurumları da tərəfdaşlar sırasındadır.

Gədəbəy rayonunun ərazisində yerləşən Düzyurd-Miskinli yaylağında, nadir konsepsiya əsasında keçiriləcək Milli Yaylaq Festivalına yerli iştirakçılar və qonaqlarla yanaşı, 20-yə yaxın xarici ölkədən çoxsaylı fəxri qonaq və turistlərin gəlişi də gözlənilir.

Festivalın daha möhtəşəm və yaddaqalan keçirilməsi, həmçinin Gədəbəyin tarixi-mədəni irsinin və turizm potensialının yüksək səviyyədə təbliği üçün təşkilatçılar tərəfindən üç ay əvvəldən hazırlıq işlərinə başlanılıb.

Bu məqsədlə Miskinli yaylağının ərazisində orijinal üslubda "Yaylaq yurdu" adlı etno-qəsəbə salınıb. Etno-qəsəbənin ərazisində yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, cıdır meydanı, yaylaq (kənd təsərrüfatı) bazarı, sənətkarlıq guşəsi, "Dədə Qorqud" ocağı (tamaşaçılar üçün səhnə), yaylaq yatağı (ev heyvanları üçün yerlər), pəhləvan meydanı (yarış sahəsi), "Aşıq Ələsgər" ocağı, yaylaq süfrəsi (yaylaq mətbəxi) və digər tematik sahələr yaradılıb.

Etno-qəsəbənin iyul-avqust ayları ərzində turistlər və qonaqlar üçün fəaliyyət göstərəcəyi nəzərdə tutulub. Festival çərçivəsində el şənliyi (etnoqrafik mədəni-idman tədbiri) də keçiriləcək.

# Kənd təsərrüfatı işlərində ilk dəfə drondan istifadə olunub

Ucar rayonunda Çin texnologiyası ilə əkilmiş pambıq sahəsində dron vasitəsilə qırmızı tor gənəsinə qarşı yeni innovativ kimyəvi mübarizə aparılıb.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, dron vasitəsilə kimyəvi mübarizə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun "Xəstəlik və zərərvericilərə nəzarət laboratoriyası"nın aparıcı elmi işçisi İbrahimov Etibar və "Bitki seleksiyası" şöbəsinin elmi işçisi Qəribov Zöhrab tərəfindən həyata keçirilib. Dronlar vasitəsilə kimyəvi mübarizə fermerlərin marağına səbəb olub.



Qeyd edək ki, Çin texnologiyası ilə əkilmiş pambıq sahəsinin torpaq səthi polietilen örtüklə örtülür və bitkilərin suvarılması damcı üsulu ilə həyata keçirilir. Bunu əsas gətirən mütəxəssislər bildirib ki, pambıq sahəsində qırmızı tor gənəsinə qarşı kimyəvi mübarizədə ağır texnikanın əvəzinə drondan istifadə edilməsi məqsədəuyğundur.

# «Azərbaycanlı həmkarlarımızla əməkdaşlıq hər iki tərəf üçün faydalı olacaq»

## "Tatneft"in aparıcı mütəxəssisi bunu əminliklə deyir

**"Tatneft" Rusiyanın beynəlxalq aləmdə tanınmış və qəbul edilmiş neft şirkətlərindəndir. Bu nəhəng istehsalat kompleksində neft və qaz yataqlarının geoloji kəşfiyyatı və işlənməsi, karbohidrogenlərin hasilatı və emalı, maşınqayırma, neft kimyası, yanacaqdoldurma, şin buraxılışı sahələri birləşib. "Tatneft" eləcə də maliyyə (bank və sığorta) sektoru şirkətlərinin kapitalında iştirak edir.**



Şirkət Rusiya Federasiyasının bir çox ərazilərində neft-qaz yataqlarının öyrənilməsi, kəşfiyyatı və karbohidrogenlərin hasilatı ilə məşğul olsa da, əsas fəaliyyət məkanı Tatarıstandır. "Tatneft"in respublikada və onun hüdudlarından kənarda yataqların geoloji cəhətdən öyrənilməsi üçün 80-ə yaxın lisenziyası var. O, "Yeni Yelxov", "Bavlin", "Boncyuk", "1 May", "Sabaçin" də daxil olmaqla 100-dən çox yataqda iş aparır. Bununla belə, əsas ehtiyat mənbələri dünyanın ən böyük yataqlarından olan "Romaşkin"də yerləşir. Şirkət ümumi hasilatının yarıdan çoxunu bu yataqdan əldə edir.

"Tatneft" indiyədək yataqlardan 3 milyard tondan çox karbohidrogen çıxarmışdır. "Miller and Lents" Müstəqil Məsləhət Firmasının qiymətləndirməsinə görə, təsdiq edilmiş neft ehtiyatları 6,214 milyard bareldir.

Yataqlarının coğrafi cəhətdən bir-birinə yaxınlığı, özünün emal və generasiya qurğularının, neftin və digər məhsulların satışı üçün logistikasının olması şirkətin biznesinə müsbət təsir göstərir. Belə ki, "Tatneft" dünyanın 42 ölkəsinə məhsul ixrac edir. Şirkətin neft emalı məhsulları Rusiyanın 23 regionunda satılır. Şirkət neft-qaz hasilatının rentabelliyinin, istehsal həcmlərinin, emal məhsullarının satışının artırılması, əməliyyat xərclərinin azaldılması, sərmayələrin səmərəliliyinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim yeni təşəbbüslər irəli sürür.

Sabit inkişafa və neft hasilatının getdikcə artmasına təkan verən həm də şirkətin böyük istehsalat təcrübəsi, müasir texnologiyalar və elmi-texniki potensialdır. Neft hasilatının biznes-planlaşdırılması, yataqların işlənməsi proseslərinin sürətləndirilməsi və iqtisadi cəhətdən daha səmərəli geoloji-texniki tədbirlərin həyata keçirilməsi üçün burada mövcud olan modellər əsasında modelləşdirmə mərkəzi yaradılıb. 2021-ci ilədək "Tatneft"in yataqlarındakı bütün obyektlərin modelləşdirmə ilə əhatə olunması nəzərdə tutulub.

"Tatneft"in mədənlərində hər il 1 milyon metrə yaxın dağ süxurları qazılır, 500-dən çox hasilat quyusu istismara verilir, quyularda 2500 əsaslı təmir işləri, laylarda 800 hidroparçalanma əməliyyatları həyata keçirilir.

Nijnekamsk şəhərində yerləşən TANEKO neft emalı və neft-kimya zavodları layihəsinin "Tatneft"in fəaliyyətində strateji əhəmiyyəti var. Bu, Rusiyanın neft emalı zavodları arasında ilkin emal sahəsində ön yeri tutur. TANEKO tam işə düşdükdən sonra burada neftin emalı fasiləsiz aparılacaq.

Şin istehsalı sahəsindəki geniş şəbəkəsi də "Tatneft"in bugünkü fəaliyyətinin ayrılmaz hissəsidir. Şəbəkə 11 müəssisəni birləşdirir və beynəlxalq standartlara cavab verən, öz brendi ilə tanınan məhsul buraxır. İstehlakçıların tələbatına yüksək səviyyədə cavab verdiyinə görə xüsusilə "KAMA" markalı şinlər geniş yayılıb. Bu brendlə minik və yük maşınları, eləcə də xüsusi texnika üçün şinlər istehsal edilir. Rahatlığı sevən sürücülər bu məhsullara böyük üstünlük verirlər.

Yanacaqdoldurma stansiyaları da şirkətin mühüm hissələrindəndir. Yanacaq və xidmətlərin yüksək keyfiyyəti burada əsas prioritet sayılır. Şəbəkə şimaldan cənuba - Arxangelskdən Krasnodaradək, qərbdən şərqə - Sankt-Peterburqdan Kemerovoyadək Rusiyanın 23 regionunu əhatə edir. Şirkətin yaxın xaricdə də yanacaqdoldurma stansiyaları var.

Maşınqayırma kompleksini isə Buqulma Mexaniki Zavodu təmsil edir. Burada neft, qaz, neft emalı, neft kimyası, metallurgiya, energetika sahələri üçün geniş çeşiddə məhsullar buraxılır. Əsas istehlakçılar Qərbi və Şimal-Qərbi Sibirdəki, Rusiyanın mərkəzi hissəsindəki müəssisələrdir.

"Tatneft" digər ölkələrdəki həmkarları ilə əməkdaşlığı getdikcə genişləndirir. Bu il mayın 29-dan iyunun 1-dək Bakı Ekspo Mərkəzində keçirilən 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində "Tatneft" geniş pavilyonda təmsil olunurdu. Burada kompleksin keçmişi, bu günü və gələcəyi haqqında sərgi iştirakçılarına və tamaşaçılarına geniş məlumat təqdim edilirdi. Şirkətin Normativ Tədqiqat İşləri Mərkəzinin direktoru Ruslan Usmanov vurğuladı ki, "Tatneft"in fəaliyyəti çoxşaxəlidir. Qısaca desək, neft quyusundan başlanıb benzindoldurma məntəqəsində sona çatan fəaliyyət zənciri var.

Digər ölkələrin müəssisələri ilə birgə layihələri, əməkdaşlıqları haqqında suala isə R.Usmanov belə cavab verdi:

- "Tatneft" əməkdaşlığa açıq şirkətdir. Bir sıra birgə layihələrimiz var və indi yeniləri üzərində də işləyirik. Türkmənistan, Özbəkistan, Qazaxıstan neftçiləri ilə sıx əlaqələrimiz var. Azərbaycanlı həmkarlarımızla da əməkdaşlığı inkişaf etdirmək niyyətindəyik. Açığı, bizi bu sərgiyə SOCAR dəvət edib. Biz SOCAR-ın nümayəndələri ilə Özbəkistanda keçirilən analoji sərgidə tanış olduq. Dəvəti də elə orada aldıq. Düşünürəm ki, əməkdaşlığımız çox faydalı olacaq. Çünki həm Azərbaycan, həm Tatarıstan neft-qaz sektorunda zəngin təcrübə qazanıblar və bilgilərimizin mübadiləsindən hər iki tərəf bəhrələnəcək. Artıq bu sahədə müəyyən razılaşmalara gəlmişik və danışıqları davam etdiririk.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Prezidentin fərmanının icrası davam edir

Prezidentin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlər davam etdirilir.

Görülmüş tədbirlər nəticəsində ötən 5 ay ərzində ümumi sahəsi 1.928.897 kvadratmetr olan 19551 mənzilli, ümumilikdə 317 girişli 116 binaya (kompleksə) dair müsbət rəy verilib. 114-ü Bakı şəhəri, 1-i Abşeron rayonu, 1-i isə Gəncə şəhərində yerləşən bu binalara dair sənədlər komplektləşdirilərək, müvafiq qaydada onların istismara hazır olması barədə tərtib edilmiş rəy aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron Rayon və Gəncə Şəhər İcra hakimiyyətlərinə təqdim olunub.

Aparılmış müayinələr nəticəsində aşkar edilən çatışmazlıqların aradan qaldırılması üzrə işlərin fərmanla müəyyən olunmuş vaxtda başa çatdırılmasının təmin edilməsi, bu istiqamətdə qarşıya çıxan məsələlərin operativ həlli üçün birgə fikir mübadiləsinin aparılması məqsədilə cari il iyulun 1-də, 5-də və 12-də Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin binasında müvafiq xidmətlərin rəhbər şəxslərinin iştirakı ilə çoxmənzilli yaşayış binalarının nümayəndələri ilə növbəti görüşlər keçirilib. Bu görüşlər zamanı 110 binanın təmsilçisi qəbul edilib, hər bir bina üzrə mövcud vəziyyət təhlil edilib, nöqsanların aradan qaldırılması məqsədilə görüləcək işlər və müvafiq xidmətlər tərəfindən köməyin göstərilməsi imkanları nəzərdən keçirilib. Bu formatda görüşlərin keçirilməsi müsbət qiymətləndirilərək belə tədbirlərin davam etdirilməsi qərara alınıb.

Fərmandan irəli gələn məsələlərin icrası davam etdirilir və görülən işlər ölkə başçısının nəzarəti altındadır.

# "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi fəaliyyətini genişləndirir

Bu ilin fevralından etibarən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlayan Azərbaycan Standartlaşdırma İnstitutu sözügedən mərkəz vasitəsilə hüquqi və fiziki şəxslərə 100-dən çox uyğunluq sertifikatı verib.



Sertifikat verilən məhsulların böyük əksəriyyətinin həm də ixrac olunduğu nəzərə alınaraq, "bir pəncərə" prinsipi əsasında digər icazə sənədlərinin də alınması ixracatçılar üçün əhəmiyyətli rol oynayaraq daha az xərc və vəsait xərcləməsinə səbəb olur. Sertifikat verilən məhsullara fındıq, xama, kərə yağı, buğda unu, buğda kəpəyi, nar şərabı, şəkərli peçenye, istehsalat sahələri üçün metal konstruksiyalar, polietilen örtüklər, neft turşusu və sair daxildir.

Yerli istehsalla məşğul olan şirkətlərin ixracyönümlü fəaliyyət qurmasına dəstək verən mərkəz müxtəlif məsləhət xidmətləri göstərən məhsulun keyfiyyətinin artırılmasına töhfə verməkdə davam edir. Belə ki, xüsusilə aqrar məhsulların Avropa ölkələrinə ixracı məqsədilə müxtəlif standartların tətbiqi istiqamətində özəl sektorla əlaqələndirici rola malik "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi bir sıra şirkətlərin daha az maliyyə resursu sərf etməklə beynəlxalq standartlara yiyələnməsinə dəstək olub.

Altı aya yaxın müddətdə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində Azərbaycan Standartlaşdırma İnstitutunun xidmətindən həm elektron, həm də fiziki qaydada çoxlu sayda sahibkarlar istifadə edir. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində uyğunluq sertifikatının verilməsi və bir sıra beynəlxalq standartların tətbiqi istiqamətində əlaqələndirici koordinasiyaya malik "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi kiçik və orta sahibkarlıq subyektlərinin məmnuniyyətini nəzərə alaraq ixracı özündə əhatə edən digər institutları da gələcəkdə cəlb etmək niyyətindədir.

# XV Avropa Gənclər Yay Olimpiya Festivalı

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL





# 9 qızıl, 5 gümüş, 5 bürünc

## Üzgüçümüz finala yüksəldi



Azərbaycan atleti Məryəm Şeyxəlizadəxangah XV Avropa Gənclər Yay Olimpiya Festivalının üzgüçülük yarışlarının finalına vəsiqə qazanıb.

Təmsilçimiz 100 metr məsafəyə batterflay üsulu ilə üzmə yarışında finişə 1 dəqiqə 1,51 saniyəyə çatıb.

Qadınlar arasında 100 metr məsafəyə batterflay üsulu ilə üzmə yarışının final mərhələsi bu gün keçiriləcək.

Digər üzgüçümüz Ramil Vəlizadə isə batterflyay üsulu ilə 200 m məsafəyə üzən oğlanların mübarizəsində qüvvəsini sınayıb. İlkin və yarımfinal mərhələlərini uğurla adlayan həmyerlimiz ən güclü 8 üzgüçünün qatıldığı final mərhələsində yarışıb.

O, məsafəni 2 dəqiqə 02,71 saniyəyə qət edib. Bu nəticə ilə 5-ci yeri tutan R.Vəlizadəni bürünc medaldan 0,89 saniyə ayırıb.

Bu məsafədə çempion olan rusiyalı Vadim Klimençev 1 dəqiqə 58,06 saniyə nəticə göstərib.

## Xasay Həsənli qələbəsini Azərbaycan xalqına həsr edir



"Qələbəmi Azərbaycan xalqına həsr edirəm. Çempionluğa gedən yolum heç də asan olmadı. Nə qədər çətin keçsə də, daxilimdə bir hiss, inam var idi ki, bu mötəbər yarışda ölkəmizin aktivinə daha bir qızıl medal əlavə edəcəyəm".

Bu sözləri XV Avropa Gənclər Yay Olimpiya Festivalında 65 kiloqram çəki dərəcəsində qızıl medal qazanan yunan-Roma güləşçimiz Xasay Həsənli deyib.

Yarışa çox yaxşı hazırlaşdığını deyən idmançının hədəfi dünya çempionatında qızıl medal qazanmaqdır.

Qeyd edək ki, finalda Almaniya təmsilçisi Deni Nakayev ilə qarşılaşmada 3:2 hesabı ilə qalib gələn idmançımız ölkəmizin aktivinə 6-cı qızıl medalı yazdırıb.

## Atletimiz həlledici mərhələdə



XV Avropa Gənclər Yay Olimpiya Festivalının atletika yarışları davam edir. Dünən səhər sessiyasında Azərbaycan yığmasının üç üzvü mübarizəyə qoşulub.

Qızların üçtəkanla tullanma yarışında Sabrina Jralova təsnifat mərhələsində qüvvəsini sınayıb. B qrupunda çıxış edən atlet 12,23 metrə tullanıb. 16 yaşlı təmsilçimiz 9-cu yeri tutaraq final mərhələsinə yüksəlib. Həlledici raund iyulun 26-da keçiriləcək və saat 18:10-da start götürəcək.

Qaçış zolağına çıxan iki təmsilçimiz isə mübarizəni dayandırıb. Lamiyə Vəliyeva qızların 200 metr məsafəyə qaçışında I mərhələdə qüvvəsini sınayıb. 25,06 saniyə göstəriciyə imza atan atletimiz 20 iştirakçı arasında 14-cü yeri tutub.

Oğlanların eyni məsafəyə qaçışında isə ölkəmizi Əli Abdıyev təmsil edib. O, I mərhələni 22,63 saniyəyə qaçıb. Atletimiz 19 iştirakçı arasında 14-cü yeri tutub.

## Cakub KADLEC: "Bakının gözəl arxitekturasına və Azərbaycan mətbəxinə valeh oldum"



Bakının gözəl arxitekturasına və Azərbaycan mətbəxinə valeh oldum.

Bunu Çexiyanın basketbol üzrə yığma komandasının azarkeşi Cakub Kadlec söyləyib.Çexiyalı azarkeş əlavə edib: "Bu, mənim Bakıya ilk gəlişimdir. Mən buraya qızımın da oynadığı komandanı dəstəkləməkdən ötrü gəlmişəm. O, basketbol idman növünü müstəqil olaraq seçib. Bu məsələdə mənim ona heç bir təsirim olmayıb. Turnirdə bir çox güclü komandaların çıxış etməsinə baxmayaraq, hesab edirəm ki, qızlar arasında EYOF-un basketbol turnirinin qalibi Çexiya yığması olacaq".

## Olimpia Breza 3000 metr məsafəni hamıdan tez qaçdı

XV Avropa Gənclər Olimpiya Festivalında qızlar arasında 3000 metr məsafəyə qaçış üzrə final yarışı keçirilib. Bu yarışda qızıl medalı polşalı Olimpia Breza qazanıb. 17 yaşlı atlet 3 kilometr məsafəni 9:48 saniyəyə qət edib. Gümüş medala norveçli İna Halle Haugen, bürünc medala isə ispaniyalı Mariya Forero layiq görülüblər.





## Cüdoçular medal estafetini davam etdirirlər

Əvvəli 1-ci səh.





Cüdoçumuz finala gedən yolda türkiyəli Muhammed Demirellə üz-üzə gəlib və tatamidən qalib ayrılıb. Həlledici mərhələdə rəqib rusiyalı Rizvan Maqomadov olub. Maraqlı idman mübarizəsi şəraitində keçən görüşdən qalib ayrılan Turan "Bakı-2019"un qalibi olub.

Görüşdən sonra Turan Bayramov deyib: "Yarışa ciddi hazırlaşmışdım, inanırdım ki, qələbə qazanacağam. Doğma meydanda qızıl medal qazanmağımdan çox məmnunam. Final görüşüm bir az çətin keçdi. Digər idmançılarla görüşdə qələbə qazanmaqda elə də çətinlik çəkmədim".

Festivalın yüksək səviyyədə təşkil olunduğunu söyləyən idmançımız növbəti hədəfini də açıqlayıb. Bildirib ki, hədəfi bundan sonra daha səylə çalışaraq dünya, Olimpiya çempionu olmaqdır.

Qadınların yarışında 55 kq çəkidə mübarizə aparan Şükran Zamanlı da mübarizəyə portuqaliyalı Migel Gaqodan üzərində qələbə ilə başlayıb. Lakin idmançımız uğurun davamını gətirə bilməyib və ikinci cəhdində macarıstanlı Bense Farkaşa uduzub. Buna baxmayaraq, təsəlliverici görüşlərə qatılan həmyerlimiz almaniyalı David İckes və hollandiyalı Laurens Vilmsdən güclü olub. Bürünc medal uğrunda görüşdə Şükran ukraynalı Vladislav Kolobovla qarşılaşmadan qalib ayrılaraq turniri 3-cü pillədə başa vurub.

44 kq çəkidə qüvvəsini sınayan Gülşən Bəşirova da Mariya Qonzalesə (İspaniya) qalib gəldikdən sonra Anastasiya Balabana (Bolqarıstan) məğlub olub. Təsəlliverici qarşılaşma isə Gülşənin xeyrinə yekunlaşıb. O, polşalı Natalya Stoklosanı mübarizədən kənarlaşdırıb. Cüdoçumuz 3-cü yer uğrunda hollandiyalı Joşlin Supusepa ilə üz-üzə gəlib. Rəqibini ipponla məğlub edən idmançımız Festivalı 3-cü yerdə başa vurub.

İsmayıl Qənbərli (50 kq) startda Sergey Mastryukova (Rusiya) uduzub. Onun rəqibi növbəti mərhələdə məğlub olduğu üçün təmsilçimiz yarışla vaxtından əvvəl vidalaşıb.

***Elçin CƏFƏROV, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

## Katerina BREJÇOVA: "Bakı gözəl şəhərdir, burada insanlar çox mehribandırlar"



Bakı gözəl şəhərdir, burada insanlar çox mehribandırlar. Bu sözləri mətbuata müsahibəsində basketbol üzrə Çexiya yığmasının azarkeşi Katerina Brejçova söyləyib. Çexiyalı azarkeş əlavə edib:

"Mən Bakıya bacımın oynadığı komandamızı dəstəkləməyə gəlmişəm. O, bizim ailəmizdə ənənəvi idman növü olan basketbolu seçib. Mən və böyük qardaşım da basketbol oynayırıq. Şübhəsiz ki, EYOF 2019-da çoxlu layiqli komandalar iştirak edir. Lakin hesab edirəm ki, qızlar arasında basketbol turnirinin qalibi Çexiya yığması olacaq".

## Sander Norveçə, Mario İspaniyaya ilk qızıl medalı qazandırdı

Avropa Gənclər Olimpiya Festivalının atletika yarışlarında oğlanların arasında keçirilən çoxnövçülükdə qaliblər müəyyənləşib.



Yarışda qızıl medala norveçli atlet Sander Skotheim sahib olub. Belçikalı Yente Hauttekete gümüş, almaniyalı Paul Kallenberq bürünc medala layiq görülüblər.

Oğlanlar arasında 110 metr məsafəyə maneələrlə qaçış yarışında İspaniya təmsilçisi qalib gəlib. Yarışda məsafəni 13,59 saniyəyə qət edən Mario Revenqa çempion adını qazanıb. Çexiyalı Tomas Oberndorfer ikinci, macarıstanlı Mark Pap üçüncü pillələrdə qərarlaşıblar.

## İdman gimnastikasında Rusiya millisi birinci oldu

XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında növbəti medalçılar müəyyənləşib.



Qadın gimnastların komanda yarışlarında Rusiya millisi birinci olub. Rumıniya yığması yarışı ikinci, Böyük Britaniya isə üçüncü pillədə başa vurub.

Milli Gimnastika Arenasında keçirilən yarışlarda Avropanın 37 ölkəsinin idmançıları mübarizə aparıblar.

## İtaliyalı tennisçi: "Bakıda idmançılar üçün bütün lazımi şərait yaradılıb"



Bir neçə ölkədə beynəlxalq yarışlarda olmuşam. XV Avropa Gənclər Yay Olimpiya Festivalı çox gözəl təşkil olunub.

Qaldığım "Atletlər kəndi", Bakı Tennis Akademiyasının yarışlar keçirilən açıq, məşqlər üçün qapalı kortları çox yaxşı hazırlanıb. Bakıda idmançılar üçün bütün lazımi şərait yaradılıb.

Bu fikri Yay Olimpiya Festivalında yarışan italiyalı tennisçi Daniele Minighini deyib. O bildirib ki, yarışların nəticəsindən asılı olmayaraq Bakıdan öz ölkəsinə müsbət təəssüratlarla geri dönəcək.

"Artıq 1/8 oyunlar gedir. Yarışın çətinliyi hiss olunmağa başlayıb. Ümid edirəm ki, məşqlərim öz nəticəsini verəcək. Vətənimə əliboş qayıtmayacağam", - deyə italiyalı tennisçi qeyd edib.

## 400 metr məsafəni 53 saniyəyə qaçdı




Festivalın atletika yarışlarının üçüncü günündə ilk medalın sahibi müəyyənləşib. Qızlar arasında 400 metr məsafəyə qaçış yarışında qızıl medalı 53,57 saniyə nəticə göstərən rusiyalı Olesya Soldatova qazanıb.

Belçikalı atlet Liefde Sxomaker (53,85 saniyə) gümüş medala sahib olub. İlk üçlüyü norveçli Lakeri Ertsqaard 54,56 saniyə nəticə ilə tamamlayıb.



# 7 layihə, 20 milyon manat investisiya

## İlham Əliyevin modern sənayeləşmə siyasətinin növbəti töhfəsi - Sabirabad Sənaye Məhəlləsi bu il istifadəyə veriləcək

*Əvvəli 1-ci səh.*

Bundan başqa ikimərtəbəli inzibati, texniki və köməkçi binalar tikilib. Sahibkarların ixtiyarına veriləcək istehsalat sahələri də ikimərtəbəlidir.

Sahəsi 1000 kvadratmetr olan məhəllə ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və idarəedici təşkilatın istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Sənaye məhəlləsində sahibkarlara mühasibatlıq, hüquq, bank və sığorta, poçt və internet, logistika, tibbi xidmətlər göstəriləcək.



### Fasiləsiz enerji təminatı, sutəmizləyici qurğular...

Sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə yaradılan məhəllədə artıq bütün istehsal korpusları elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, yanğından mühafizə sistemləri ilə təchiz edilib.

Həmçinin ərazidə məişət və texniki suların təmizləyici qurğulardan keçib yenidən istifadə edilməsi üçün müasir qurğular, elektrik yarımstansiyası, infrastruktur sistemlərinin fasiləsiz enerji ilə təmini üçün generator mövcuddur. Müəyyən səbəblərdən elektrik kəsilərsə, dərhal generator işə düşür, məhəllədə elektrik kəsilmir.



### 20 milyon manatlıq sərmayə...

Sahibkarlar tərəfindən böyük maraq göstərilən məhəllədə iştirakçı kimi qeydiyyatdan keçmək üçün daxil olan müraciətlərin qiymətləndirilməsinə gəlincə, Eldəniz Novruzov deyir ki, artıq ümumi investisiya dəyəri 20 milyon manat, 300-dən çox yeni iş yeri yaradılması nəzərdə tutulan 7 layihə dəyərləndirilib. Yəni 7 sahibkarlıq subyektinin sənaye məhəlləsinə iştirakçı kimi qeydiyyata alınmaları barədə "Azərbaycan investisiya Şirkəti" tərəfindən qərar qəbul edilib.

Bunlar jele, toffi və nuqalı konfetlərin istehsalçısı "Mirzəoğlu" MMC-nin, şokoladlı konfet istehsalçısı "Konfirom" MMC, yun və təbii bitki tədarükü "Azərxalça" ASC, orqanik gübrə istehsalçısı "İbra Holding", bal məhsullarının qablaşdırılması üzrə fəaliyyət göstərən "Kercom" MMC, aqrotexniki xidmətlər (şum, səpin, biçin və s.) və biznes-konsaltinq xidmətləri göstərən "Aqrotexservis" MMC, eləcə də "Etöre İnşaat Mediya Enerji İthalat İhracat Yatırım Danışmanlık" müəssisələridir. Hazırda sənaye məhəlləsinə iştirakçıların qəbulu davam etdirilir. Əgər gələcəkdə ehtiyac yaranarsa, yeni istehsalat korpusları da inşa oluna bilər.



### Həm məkan, həm də tikinti xərclərindən azad

Sənaye məhəllələri kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli imkanlar yaratdığından komplekslərə böyük maraq var. Çünki məhəllələr sahibkarı həm məkan, həm də tikinti xərclərindən azad edir. Belə ki, sahibkar müraciət edərək məhəllədəki istehsalat korpuslarında istənilən həcmdə yeri icarəyə götürür. Həmin ərazidə isə bütün kommunal xidmətlər mövcuddur. Sadəcə olaraq avadanlıqlar quraşdırılır və istehsala başlanılır. Sahibkar dövlətə yalnız götürdüyü sahəyə uyğun icarəhaqqı verir.

Məhəllələrdə sahibkarlara torpaq sahələri də icarəyə verilir. Sahibkar hüquqi şəxs kimi məhəllənin ərazisindən torpaq sahəsi götürüb öz müəssisəsini inşa edir. Bu zaman Vergi Məcəlləsinə uyğun torpaq vergisi ödənilir. İstehsalat sahələrində yer götürən sahibkarlar dövlət tərəfindən tənzimlənən minimum qiymətlər əsasında icarəhaqqı ödəyirlər. Bu vəsaitin 50 faizi dövlət büdcəsinə, 50 faizi "Azərbaycan İnvestisiya Şirkəti"nə daxil olur. Torpağı icarəyə götürənlərin vergisi isə Vergi Məcəlləsinə uyğun tənzimlənir. Burada icarəhaqqı 100 faiz dövlət büdcəsinə ödənilir.

Məsələn, "Azərxalça" ASC məhəllənin ərazisində 0.60 hektar torpaq sahəsi icarəyə götürərək yun tədarükü məntəqəsi inşa edib. Bu regional yun tədarükü məntəqəsi Sabirabad, Hacıqabul, Saatlı, Salyan, Kürdəmir, Ucar, İmişli, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Neftçala rayonlarını, Şirvan və Lənkəran şəhərlərini əhatə edir.

### Sənaye məhəllələrinin yaradılması xüsusi önəm kəsb edir

Bölgələrdə formalaşan ənənələr, xammal potensialı və əmək ehtiyatları nəzərə alınmaqla yaradılan belə müəssisələr bir qayda olaraq ən müasir standartlar səviyyəsində qurulur. Hazır məhsul həm daxili tələbatın ödənilməsinə yönəldilir, həm də ixrac idxalı üstələyir, "Made in Azerbaijan" brendi ilə dünya bazarına çıxan məhsullarımızın çeşidi artır, ixrac coğrafiyası böyüyür.

Göründüyü kimi, regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi baxımından sənaye məhəllələrinin yaradılması xüsusi önəm kəsb edir.

Prezident İlham Əliyevin illər öncə söylədiyi "Azərbaycanın qeyri-neft sənayesinin inkişafı üçün tikilən bütün sənaye park və məhəllələri, zavod və fabriklər bir müddətdən sonra ölkəyə böyük həcmdə valyuta gətirəcək" fikri təsdiqini tapır. Ötən il olduğu kimi, bu il də dövlət başçısının modern sənayeləşmə istiqamətində həyata keçirdiyi layihələr uğurla reallaşacaq və ölkəmizdə fəaliyyətə başlayacaq daha 2 yeni sənaye məhəlləsi bu sahənin inkişafına mühüm töhfə verəcək. Yerli istehsalın stimullaşdırılması istiqamətində həyata keçirilən işlər tezliklə ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin sürətli inkişafına səbəb olacaq.

Sabirabad Sənaye Məhəlləsi də rayon, bütünlükdə region üçün, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun təmin olunması baxımından əlverişli məkana çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





# 2500 illik qardaşlıq

## Dağ yəhudiləri özlərini Azərbaycanda heç vaxt yad hesab etməyiblər

*Əvvəli 1-ci səh.*



Dağ yəhudilərinin çox qədimdən Qafqazda məskunlaşdığı ehtimal olunur. Onların əcdadları 5-6-cı əsrlərdə Qafqaz Albaniyasında məskunlaşmışdılar. Hətta 1990-cı ildə aparılan arxeoloji qazıntılar zamanı Bakı civarında və Qubanın 25 kilometrliyində VII əsrə aid yəhudi yaşayış məntəqəsinin qalıqları tapılmışdır. Ümumi rəyə əsasən, dağ yəhudilərinin əcdadları İrandan və yaxud Bizans imperiyasından köç edərək, Qafqaz Albaniyasında məskən salmışlar. Digər fərziyyələrə görə, dağ yəhudiləri İsrailin qeyb olmuş tayfalarının övladlarıdır və miladdan əvvəl 722-ci ildə Yerusəlimdə Beyt-ül-Müqəddəs (Süleyman məbədi) ilk dəfə dağıdılan zaman didərgin düşmüş, köç edə-edə, nəhayət, Şərqi Qafqazda məskən salmışlar.

Dağ yəhudilərinin Azərbaycana gəlişinin tarixi isə 2500 ilə yaxındır. Onların Azərbaycanda məskunlaşması xaricdən köçürülmələr və daxili yerdəyişmələr nəticəsində baş vermişdir. İlk köçürülmələr Sasani dövlətilə (III-VII əsrlər) əlaqələndirilir. Sasanilər Xəzərsahili bölgələrin müdafiəsini təşkil etmək üçün imperiyanın müxtəlif yerlərindən buraya əhali köçürmüşdür. Onların içərisində yəhudilər də var idi. Bu proses Ərəb Xilafəti (VII-IX əsrlər), monqollar (XIII-XIV əsrlər) və sonrakı dövrlərdə də davam etmişdir. Dağ yəhudilərinin daxili məskunlaşmasında əsas dəyişikliklər Səfəvi dövlətinin varlığına son qoyaraq, hakimiyyəti ələ alan Nadir Şah Əfşarın dövründə baş vermişdir. Nadirin hücumları zamanı dağ yəhudilərinin Qudyal çayın sol sahilində yerləşən qəsəbəsi dağıdılmışdır. 1747-ci ildə Nadir şahın öldürülməsi ilə Əfşarlar dövləti parçalanmış, xanlıqlar yaranmışdır. Qırğından xilas olan dağ yəhudiləri yeni yaranmış Quba xanlığının banisi olan Hüseynqulu xana pənah gətirmişlər. Quba xanı onlara Qudyal çayın sağ sahilində məskunlaşmağı təklif etmişdir. Beləliklə, ovaxtdan həmin bölgə - Qubadakı Qırmızı Qəsəbə dağ yəhudilərinin kompakt yaşadığı məskənə çevrilmişdir.

Hazırda Azərbaycanda yaşayan dağ yəhudilərinin sayı 20 minə yaxındır. Onların əsas hissəsi Qubada, digərləri isə Bakıda, Oğuzda, İsmayıllıda, Göyçayda, Lənkəranda yaşayır.

### "Toylarımızda süfrəyə Azərbaycanın milli xörəkləri düzülür"

Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev bildirir ki, ölkəmizdə yəhudi xalqının yaşayıb inkişaf etməsi üçün hər cür şərait yaradılıb. Uşaq bağçası, məktəb, kollec açılıb: "Biz uzun əsrlərdir ki, Azərbaycanda yaşayırıq. Azərbaycanda dilimizi, dinimizi saxlamaq üçün hər cür şərait var. Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş bütün haqlarımızdan ölkə vətəndaşı kimi tam istifadə edə bilirik. Son 25 ilə qədər yəhudilər orta ümumtəhsil məktəblərində təhsil alırdılar. İndi isə Azərbaycanın tolerantlıq və multikultural mühitində Bakıda 2 orta məktəbimiz var. Məktəbdə tədris rus dilindədir, lakin yəhudi təmayüllüdür. Yəni əsas fənlərlə yanaşı, yəhudi dini adət-ənənələri də öyrədilir. Bu məktəbi bitirən gənc dünyanın istənilən ali məktəbinə imtahan vermək iqtidarındadır. Bununla yanaşı, yəhudi uşaqlar üçün 3 uşaq bağçası var. Bir də 25 ildən çoxdur Qubada kollec fəaliyyət göstərir. Kollecdə yəhudilik üçün ravvinlər hazırlayırlar. Azərbaycan xalqının istifadə etdiyi bütün imtiyazlardan dağ yəhudiləri da sərbəst şəkildə yararlanırlar. Azərbaycan xalqının yüksək mədəniyyəti sayəsində əsrlər boyu formalaşan milli-mənəvi dəyərlərimizi, minilliklərlə qoruyub saxladığımız adət-ənənələri itirmədən bugünə gətirmişik, onları zənginləşdirmişik. Öz kimliyimizi olduğu kimi saxlaya bilmişik. Yəhudiliyin minilliklərlə saxlanması, "Tövrat"ın itməməsi, assimilyasiyaya uğramaması yalnız Azərbaycan kimi məmləkətdə mümkün olub. Əhalisinin 96 faizi islama mənsub olan dövlətdə yəhudilər üçün sinaqoq tikilib. Özü də dövlət tikib, bizə hədiyyə verib. Bu, dünyada analoqu olmayan haldır. Bundan başqa, möhtərəm Prezident İlham Əliyevin tapşırığı ilə sinaqoqun yanında yəhudi dini mədəni mərkəzinin tikilməsi üçün torpaq sahəsi ayrılıb. Belə bir mərkəzin tikilməsi isə tarixə düşəsi hadisədir".

İcma sədrinin sözlərinə görə, dağ yəhudiləri azərbaycanlılarla o qədər qaynayıb-qarışıblar ki, artıq mentalitetləri, mətbəxləri, toyları da oxşardır: "Dağ yəhudilərinin mentaliteti dağ adamlarının mentalitetinə bənzəyir. Namus, qeyrət, ev, ailə, vətən, xalq bizim üçün çox müqəddəsdir. Mentalitetimiz heç kəsə icazə vermir bunlara toxunsun. Bizdə də müsəlmanlardakı kimi, ibadət zamanı qadınlarla kişilər eyni otaqda olmur. Qadınlar ikinci mərtəbədə pərdə arxasında, kişilər aşağıda ibadət zalında ibadət edirlər. Toylarımızda azərbaycanlı müğənnilər iştirak edir, kabab, plov kimi Azərbaycanın milli xörəkləri süfrəyə verilir. Bizdə sadəcə yemək "koşer" olmalıdı, yəni pak. Bir var halal, bir də var pak. Halal kəsilmiş ət bizim üçün hələ pak demək deyil. Xüsusi texnologiya ilə paklaşdırılır, sonra istifadə olunur. Ümumiyyətlə, bizim mətbəx də Avropa, Gürcüstan yəhudilərinin mətbəxindən fərqlidir. Bizdə milli xörəklərimizlə yanaşı, Azərbaycan mətbəxi də üstünlük təşkil edir. Avropa yəhudiləri isə Şərq mətbəxini götürməyiblər. Amma yəhudiliklə bağlı elə bir fərqimiz yoxdur. "Tövrat" həmin "Tövrat"dır, oxunuşu da eynidir. Bayramlarımız, adət-ənənəmiz birdir".

### "Biz Azərbaycanda dinc şəkildə yaşayırıq"

M.Yevdayev deyir ki, icmaları beynəlxalq aləmdə də tanınır. Hətta icma bir neçə il öncə ABŞ Prezidenti Barak Obamanın möhür medalı ilə təltif olunub. Milix Yevdayev Kaliforniya ştatında yəhudilərin 4,5 milyon tirajla nəşr olunan "Jewish journal" qəzetində məqalələrlə çıxış edir. Müəllif ermənilərin Azərbaycana qarşı ərazi iddiası, Qarabağ savaşı, Xocalı soyqırımı, 20 Yanvar faciəsi, Azərbaycan-İsrail münasibətləri, ölkəmizdəki tolerant və multikultural mühiti, sədri olduğu icmanın fəaliyyəti və digər həqiqətləri yazıları vasitəsilə dünyaya çatdırır. Bu günə qədər 40-dan çox məqaləsi həmin qəzetdə ingilis dilində işıq üzü görüb. Məqalələrin yarısı toplanaraq "Yəhudilərin Azərbaycandakı həyat tərzi" adı altında kitab şəklində çap olunaraq yayılıb. İkinci nəşri isə yaxın vaxtlarda hazır olacaq: "İcmanın bütün dövlətlərlə əlaqəsi var. Xaricdən bura qonaqlar gəlir. Biz başqa ölkələrə səfər edirik. Elə dövlətlər var ki, Azərbaycanı yaxşı tanımırlar və çoxları bələd olmaq üçün buraya gəlirlər. Ona görə də bütün həqiqətləri dünyaya olduğu kimi göstərmək lazımdır. Qoy bilsinlər ki, Azərbaycan hər zaman tolerant ölkə olub. 30 ildir Azərbaycan şərə düşüb, torpaqları zəbt olunub və bu, milli zəmində yaranan münaqişə səbəbindən baş verməyib. ABŞ-ın Kaliforniya ştatında 1 milyona yaxın sayı olan erməni diasporu yaşayır. Onlar 2015-ci ildə Kaliforniya Senatına qətnamə hazırlayıb vermişdilər ki, bu ştat erməni separatçılarını rəsmən tanısın. Mən Los Ancelesə gedib, bu qətnaməyə qarşı çıxış etdim. Orada mənə sual verdilər ki, siz azərbaycanlı deyilsiniz, bəs necə olur ki, 17 min kilometr uzaqdan gəlib Azərbaycanı müdafiə edirsiniz? Dedim, bəli, mən azərbaycanlı deyiləm, amma Azərbaycan vətəndaşıyam. İsrail tarixi vətənimiz, Azərbaycan isə doğma diyarımızdır. Siz indi bu qətnamə ilə Qarabağ müharibəsini qızışdırırsınız, amma o müharibədə nə siz, nə də sizin övladlarınız vuruşacaq. Vuruşanlar yenə azərbaycanlılar və Azərbaycanda yaşayan xalqların övladları olacaq. Yəhudi əsilli olsaq da, bizim də şəhidlərimiz, milli qəhrəmanımız var. Azərbaycanın Milli Qəhrəmanı, yəhudi əsilli Qarabağ şəhidi Albert Aqarunovun 50 illiyi bu il yüksək səviyyədə qeyd edildi. Onun şərəfinə xatirə medalı hazırlanaraq silahdaşlarına paylandı. Bakıda əsas küçələrdən birinə Albertin adı verilib. Həmin küçənin başında monumenti ucaldılacaq. Suraxanı rayonunda təhsil aldığı orta məktəb onun adını daşıyır. Hər il Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş beynəlxalq karate yarışları keçirilir. Qubada küçələrdən biri də Albert Aqarunovun adını daşıyır".

M.Yevdayev vurğulayır ki, Azərbaycan Konstitusiyası dinlər arasında fərq qoymur. Dövlətin dini icmalara yardımında bərabərlik var. Azərbaycanda sinaqoqları da, katolik kilsəsini də dövlət tikir. Prezident İlham Əliyev tolerantlıq siyasətini uğurla davam etdirir. Ona görə ölkəmizdə 843 dini icmanın 31-i qeyri-müsəlman icmasıdır və icmalar arasında həmrəylik var: "Tolerantlıq və multikultural mühit elə bir məfhumdur ki, o, sehrli çubuq vasitəsilə yarana bilməz. İnsanların şüurunda, həyat tərzində, qəlbində xalqa, millətə, ölkəyə sevgi olmasa, bu mühitdən danışmaq mümkün deyil. Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür". Məhz Azərbaycan xalqının yüksək mədəniyyətinin təntənəsidir ki, bu gün ölkədə qeyri-islam icmalarının sayı 30-u keçib. Nəhəng dövlətlərlə müqayisədə Azərbaycan kiçik ölkədir, amma əməlləri böyükdür. Azərbaycanın tolerant mühiti dünyaya nümunədir. İlham Əliyev hər bir vətəndaşın prezidenti olduğunu öz daxili və xarici siyasəti ilə sübuta yetirir. Biz bunun əməldə icrasının tam mənası ilə şahidiyik. Azərbaycanda dinc şəkildə yaşayırıq. Bu sülh şəraitini təmin edən isə möhtərəm Prezidentimizdir. Hələ vaxtilə Ulu Öndər deyib: "Yəhudilər Azərbaycanda tam əmin-amanlıq şəraitində yaşaya bilərlər". Necə ki, yaşayırıq. Yəhudilər başqa ölkələrə getsələr də, Azərbaycanla əlaqəni kəsmirlər, azərbaycanlı olduqlarını da danmırlar. Azərbaycanla fəxr edirik".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Şəhriyar Məmmədyarov FİDE Qran-pri yarışının qalibi oldu



Latviyanın paytaxtı Riqada iki həftədir davam edən Beynəlxalq Şahmat Federasiyasının (FİDE) ikinci Qran-pri yarışına yekun vurulmuşdur. Sevindirici haldır ki, turnirdə azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov qalib gəlmişdir. Tanınmış şahmatçımız dünyanın ən güclü qrossmeysterlərinin iştirak etdiyi yarışda finala vəsiqə qazanmış və həlledici matçda fransalı Maksim Vaşye-Laqrav üzərində 5:4 hesabı ilə qələbə əldə etmişdir.

Şəhriyar Məmmədyarov bu uğurlu çıxışından sonra dünya reytinqində xallarını artırmış və liderlər siyahısında ilk onluqda yer almışdır.

***"Azərbaycan"***

# "Şəmmədli" qəbiristanlığında 9 naməlum məzarda dəfn edilmiş şəhidlərə aid meyitlərin qalıqlarının ekshumasiyasına başlanılıb

1993-1994-cü illərdə Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı həlak olan və tanınmadan İmişli rayonundakı "Şəmmədli" qəbiristanlığında dəfn edilmiş şəhidlərə aid məzarlarla bağlı Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının Azərbaycan Respublikasının Baş prokuroruna müraciətinə əsasən, Bakı Hərbi Məhkəməsi tərəfindən 2019-cu il 14 iyun tarixli qərar qəbul edilib. Qərara uyğun olaraq, "Şəmmədli" qəbiristanlığında 9 naməlum məzarda dəfn edilmiş şəhidlərə aid meyitlərin qalıqlarının ekshumasiyası nəzərdə tutulur.

Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, iyulun 23-də meyitlərin qalıqlarının ekshumasiyası və tibbi-genetik ekspertizasının keçirilməsi istiqamətində işlərə başlanılıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Dövlət Təhlükəsizliyi Xidməti, Respublika Hərbi Prokurorluğu və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyi tərəfindən yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə həyata keçirilən prosesin yekunları barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Atəşkəs rejimi pozulmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Cəvahirli, Novruzlu, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.





# Mədəniyyət





● Tarixləşən heykəllər

# Sevgidən və ehtiramdan yaranan əsər

**Qədim İçərişəhərin Qoşa qala qapısından keçərək tarixin müxtəlif dövrlərinin çulğalaşdığı bir aləmə düşürsən. Çox getmədən Həsən bəy Zərdabi ilə "qarşılaşırsan". O Həsən bəylə ki, Vətəninin, xalqının tərəqqisi, soydaşlarının maariflənməsi, yurddaşlarının hüquqlarının qorunması naminə böyük işlər görmüş, Azərbaycan ziyalılarının milli oyanış, milli özünüdərk uğrunda apardıqları mübarizənin öncüllərindən biri olmuşdu.**

## Zərdabi irsinin şah əsəri - "Əkinçi" ilə birlikdə...

1837-ci il iyunun 28-də Zərdab kəndində maarifpərvər bir ailədə dünyaya gələn Həsən bəy Zərdabi çox zəngin bir həyat yolu keçdi. Müasirlərinin əksəriyyəti kimi, ilk təhsilini mollaxanada alan Həsən bəy sonralar Şamaxı şəhərində açılan məktəbdə oxudu. Həmin məktəbi bitirdikdən sonra Tiflisə getdi. Orada təhsilini davam etdirdi. 1861-ci ildə Tiflis uyezd gimnaziyasını və 1865-ci ildə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiət şöbəsini bitirdi. Tiflisdə işə başladı. Həsən bəy harada, hansı işdə çalışdısa, mütərəqqi fikirləri, düzlüyü, ədaləti sevərək müdafiə etməsi ilə diqqət mərkəzində oldu. Tiflisdə də dövlət strukturlarında korrupsiyaya qarşı çıxış etdiyi üçün təqib edildi. Bakıya gəldi. 1869-cu ildən Bakı gimnaziyasında təbiət tarixi müəllimi işləməyə başladı. Bitkilərin seleksiyası sahəsində işlərinə görə, o, dəfələrlə mükafat və diplomlarla təltif olundu. Demokratik fikirləri, həqiqətpərəstliyi ilə yenə özünə düşmənlər qazandı və müəllimlikdən əl götürməli oldu. Amma mövqeyindən geri çəkilmədi. Həmvətənlərinin cahillik bəlasından qurtulmalarını, təhsil almalarını ən böyük amalına çevirdi. Həsən bəy Zərdabi bu məqsədlə çoxşaxəli fəaliyyət göstərdi.

Dövlət Dumasına seçildiyi illərdə o, özünüidarəetmə orqanlarının işində fəal iştirak etdi. Həsən bəy məktəb, tibbi komissiyaların və su təchizatı üzrə komissiyanın üzvü idi, maarif və mədəniyyətin inkişafı ilə məşğul olurdu. 1901-ci ildə Bakıda azərbaycanlı qızlar üçün qadın məktəbinin açılmasında da onun zəhməti böyükdür. Həsən bəy Zərdabi Azərbaycan professional teatrının inkişafında da müstəsna xidmət göstərdi. Onun adı tariximizə həm də Azərbaycanda gigiyenanın əsasını qoyanlardan biri kimi yazıldı.

Ancaq Azərbaycanın görkəmli maarifçisi, təbiətşünas, publisist və pedaqoq Həsən bəy Zərdabinin şah əsəri "Əkinçi" hesab edilir. Elə İçərişəhərdə ucaldılmış abidəsində də Həsən bəy yaradıcısı və redaktoru olduğu bu ilk milli mətbu orqanı oxuyarkən təsvir olunub.

## Son nəfəsinədək xalq üçün çalışan adam

Həsənbəy Zərdabinin abidəsinin müəllifi Elmira Hüseynova bir sıra maraqlı əsərləri ilə Azərbaycan heykəltəraşlıq sənətində adını əbədiləşdirən sənətkarlardandır. O, 1954-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1960-cı ildə isə Y.Repin adına Leninqrad (indiki Sankt-Peterburq) Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdi. 1957-ci ildən Azərbaycanda və ittifaqın digər respublikalarında təşkil olunan sərgilərin iştirakçısı idi.

Elmira Hüseynovanın gənclik illərindən başlayaraq yaratdığı müxtəlif səpkili sənət nümunələri kompozisiya bitkinliyi və orijinallığı ilə seçilirdi. Onun monumental heykəl, portret, büst, barelyef və başqa bir-birindən maraqlı əsərlərinin qəhrəmanları fərqli peşə sahibləridir. Heykəltəraş "Kolxozçu qız" (1957), "Fəhlə" (1958), "Ailə" (1960), "Cəfər Cabbarlı" (1968), "Ana" (1970), "Rəsul Rza" (1970) və başqa əsərlərində elm və mədəniyyət xadimlərinin, sadə əmək adamlarının, müharibə qəhrəmanlarının fəaliyyətini, onların daxili aləmini, düşüncələrini ustalıqla təsvir edib. Həmin əsərlərə baxanda hiss olunur ki, sənətkar işlərə başlamamış öz qəhrəmanlarını yaxşı tanımağa çalışıb. Elmira Hüseynovanın zəngin yaradıcılığında Azərbaycan tarixinə, mədəniyyətinə, incəsənətinə böyük xidmətlər göstərmiş görkəmli şəxsiyyətlərə sonsuz sevgisi ifadəsini tapırdı. Bu mənada Elmira Hüseynovanın ən diqqətəlayiq əsərlərindən biri Həsən bəy Zərdabi abidəsidir. Tunc və qranitdən hazırlanmış əsər bitkin kompozisiyaya malikdir. Müəllif xalqın maariflənməsi yolunda böyük fədakarlıq göstərmiş bu vətən övladının, nəsillərə örnək şəxsiyyətin obrazını yüksək sənətkarlıqla əks etdirib.

O zaman abidə üçün yer seçilərkən Həsən bəyin həyat və fəaliyyəti nəzərə alındı. Heykəlin Azərbaycan Milli Ensiklopediyası Baş Redaksiyasının binası qarşısında ucaldılması məqsədəuyğun hesab edildi. Beləliklə, Həsən bəy Zərdabinin abidəsi 1983-cü ildə İçərişəhərdə "məskən saldı".

## "Bir heykəli-mücəssəm idin, ey vücudi-pak"...

Həsən bəy Zərdabi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə Azərbaycan mətbuatının bünövrəsini qoydu. O vaxt qəzetin birinci sayının işıq üzü görməsi hadisəyə çevrildi. Bu münasibətlə Kazandan, Krımdan, Orta Asiyadan təbrik məktubları gəldi. Milli mətbuatımızın ilk nümunəsi olan "Əkinçi" demokratik ideyaları yaymaq uğrunda mübarizə aparır, ana dilimizin təmizliyinin, saflığının qorunmasına səy göstərir, təhsilin əhəmiyyətindən söz açır, gəncləri məktəblərə səsləyirdi. Qəzetdə köhnə məktəblərdəki təlim-tərbiyə üsulları, dərsliklər kəskin tənqid edilirdi.

O zaman - XIX əsrin sonlarında çarizm üçün belə bir qəzetin fəaliyyət göstərməsi məqsədəuyğun deyildi. Yalnız redaktorunun əməyi və



fədakarlığı sayəsində qəzetin 56 sayını nəşr etmək mümkün oldu. 1877-ci ilin sentyabrında qəzeti bağladılar, bundan sonra da Həsən bəy Zərdabiyə qarşı təhdidlər və təqiblər bitmədi. İşsiz qaldı, maddi və mənəvi sıxıntılara məruz qoyuldu. Amma o, ömrünün sonunadək xalqının mədəni inkişafı yolunda mübarizədən əl çəkmədi.

1896-cı ildə Hacı Zeynalabdin Tağıyev "Kaspi" qəzetini satın aldıqdan sonra Bakıya gələn Həsən bəy Zərdabi bu mətbu orqanda ömrünün sonunadək redaktor vəzifəsində çalışdı. Bununla bərabər, o, geniş ictimai fəaliyyət göstərdi. 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilmiş I qurultayının işində yaxından iştirak etdi.

Həsən bəy Zərdabi 1907-ci ildə dünyasını dəyişdi. Dəfn mərasimində on minlərlə insan iştirak etdi. O gün kədərini dilə gətirənlər çox oldu:

**Bir heykəli-mücəssəm idin, ey vücudi-pak,**
**Şol məsləki-büland ilə oldun dəfini-xak.**
**Əlayi-şani-qövm idi əqsayi-məqsədin,**
**Ləbrizi-rəhmət olsun o pakizə mərqədin!**

Bu misralar Məhəmməd Hadinin "Mücahidi-millət Həsən bəyin ruhuna ittihaf"ındandır.

O gün xalqın səadəti, maariflənməsi yolunda çalışıb mübarizə aparmış Həsən bəyin heç zaman unudulmayacağını söyləyənlər haqlıydılar. Azərbaycanın görkəmli maarifçisi, təbiətşünas, pedaqoq, publisist Həsən bəy Zərdabi özü könüllərdə abidəsini ucaltmışdı. Ondan sonra deyiləcək və yazılacaq bütün sözlərdə, ithaf ediləcək bütün əsərlərdə bu böyük şəxsiyyətə layiq olmaq cəhdi duyulacaqdı. Həsən bəy Zərdabi abidəsinin müəllifi buna nail ola bildi...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Teatr

# "Sevgilim Sumqayıt"la görüş

**50 yaşlı Sumqayıt Dövlət Dram Teatrı cari mövsümdə əvvəlki illərdəkindən fərqli olaraq çoxlu yeniliklərə imza atmaqdadır. Repertuarların qurulmasında tamaşaçı rəyini əsas tutan, təbliğatyönümlü proqramlar hazırlayan teatr kreativ layihələr çərçivəsində göstərilən tamaşalarla teatrsevərlərin diqqətini özünə cəlb etməkdədir.**

50-ci mövsümün ikinci yarısında gerçəkləşdirilən layihələrin sırasına biri də əlavə olunub. Sumqayıt Dövlət Dram Teatrının direktoru, Əməkdar artist Mübariz Həmidovun ideya müəllifi və layihə rəhbəri olduğu tamaşa Sumqayıt sakinləri tərəfindən maraqla qarşılanıb. Sumqayıtın şəhər statusu almasının 70 illiyi ilə əlaqədar həyata keçiriləcək tədbirlər silsiləsinə teatrın yaradıcı heyəti öz töhfəsini bu yeni layihə ilə verəcək.

Bir müddət öncə tanınmış dramaturq, əsərləri ölkə teatrlarında, eləcə də xaricdə uğurla nümayiş olunan Əməkdar incəsənət xadimi Əli Əmirli şəhərin tarixini və ayrı-ayrı illərini əhatə edən hadisələri özündə cəmləyən "Sevgilim Sumqayıt" pyesini teatrın bədii şurasına təqdim edib. Xeyli müddət idi ki, əsər üzərində yaradıcılıq işi aparılırdı. Baş rejissor, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi "Sevgilim Sumqayıt" tamaşasının hazırlıq prosesi yüksək temp və sevgilə tamamlanıb. Tamaşa iki heyətdə; əsas və dublyor oyunçularla ərsəyə gəlib.

Tamaşada teatrın aparıcı aktyorları - əməkdar artistlər Fəranə Musayeva, Növrəstə Həşimova, Sədaqət Nuriyeva, İlahə Səfərova, Cəlal Məmmədov, Xatirə Süleymanova, aktyorlar Kamran Muradlı, Şəmistan Süleymanlı, Şəhla Məmmədova, İlahə Səfərova, Rövşən Əsgərov, Elay Xasıyev, Yeganə Məmmədvəliyeva, Vəfa Qurbanova, Şəms Abdullayeva və Gülnarə Qədirova çıxış edirlər. Tamaşanın quruluşçu rəssamı teatrın baş rəssamı Elşən Sərxanoğludur.



Bu günlərdə "Sevgilim Sumqayıt" tamaşasına ictimai baxış keçirilib. Teatrın bədii şura üzvləri, şəhər rəhbərliyi tamaşa haqqında fikir və tövsiyələrini kollektiv üzvlərinə bildirərək, yaradıcı heyəti təbrik etmiş, bu layihənin uğurlu bir iş olaraq şəhərimizin 70 illik yubileyinə teatrın layiqli hədiyyəsi olduğunu vurğulamışlar. Tamaşaya dəvət olunan ziyalılar, teatrşünaslar kollektivin ərsəyə gətirdikləri əsərə minnətdarlıqlarını alqışlarla bildiriblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Əməkdaşlıq





# Azərbaycan ilə Rusiya arasında humanitar əməkdaşlıq yüksək səviyyədədir

## Hər iki tərəfdə keçirilən mədəniyyət tədbirləri iki ölkənin münasibətlərinə dinamizm gətirir

**Azərbaycan tarixən qonşu xalqlarla və dövlətlərlə əlaqələri diqqət mərkəzində saxlayıb. Bu sırada Rusiyanın ilk yerdə olması heç də təsadüfi deyil. Hər iki dövlətin qarşılıqlı etimada əsaslanan münasibətləri dərin köklərə və müxtəlif amillərə söykənir. Buna görə də Azərbaycan ilə Rusiya prezidentlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin müsbət nəticələri özünü yalnız siyasi sferada göstərmir. Səmimi siyasi münasibətlərdən qaynaqlanan əməkdaşlıq strateji tərəfdaşlıqdan başlayaraq iqtisadi, hərbi, eləcə də humanitar sahəyə qədər geniş sahələri əhatə edir.**

Azərbaycanla Rusiya arasında münasibət və əlaqələr uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. İki ölkəni, eyni zamanda Azərbaycan və rus xalqlarını bir-birinə ancaq sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial məsələlər yaxınlaşdırır. Hər iki xalq və dövlət arasındakı münasibətlər sərhədlərə dayanan qonşuluqla bağlı deyil, həm də dostluq və əməkdaşlığa əsaslanır. Bakı Beynəlxalq Humanitar forumlarının müntəzəm keçirilməsi də məhz bu qəbildəndir.

2006-cı il "Azərbaycanda Rusiya Federasiyası İli" kimi qeyd olunub. Aradan keçən dövr ərzində yaxın qonşuluq və səmimi dostluq münasibətləri mədəniyyət sahəsində də öz əksini tapıb. Ötən ilin fevral ayında gənc Azərbaycan dirijoru Cavad Tağızadənin musiqi rəhbərliyi ilə Mariinski Teatrında İ.Haydının "Kimsəsiz ada" operası tamaşaçılara təqdim olunub.

Elə həmin ay Moskva Dövlət Konservatoriyasında böyük bəstəkar Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsertdə tanınmış rusiyalı solistlər - Olqa Domnina, Yelena Reviç və Yevgeni Astafurov yüksək səviyyədə çıxışlar ediblər. M.Rostropoviç adına Nijni Novqorod Dövlət Akademik Filarmoniyasında da ölməz bəstəkarımızın yubileyi şərəfinə tədbir keçirilib.

2018-ci il martın 7-də Rusiya Akademik Böyük Teatrının solistləri Alyona Kovalyova və Yakopo Tissi P.İ.Çaykovskinin "Qu gölü" baletində iştirak ediblər. Martın 28-də isə D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasında Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert keçirilib. Ötənilki tədbirlərin sırasına Heydər Əliyev Fondunun təşəbbüsü ilə Həştərxanda tikilmiş Biznes Mərkəzinin açılışında Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupunun, Xalq Çalğı Alətləri Orkestrinin kiçik heyətinin, muğam ifaçılarının, Xalq artisti Samir Cəfərovun, əməkdar artistlərdən Afaq Abbasova ilə Röya Nəcəfli və Mir Yusif Mirbabayevin iştirak etdiyi konsert də yazılıb.

Moskva Dövlət Konservatoriyasının Böyük zalında dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsertdə respublikanın Xalq artisti, tanınmış vokalçı Dinarə Əliyeva və beynəlxalq müsabiqələr laureatı, skripka ifaçısı Nikita Borisoqlebskinin çıxışlarını da bura əlavə edə bilərik. Sankt-Peterburq Musiqi Evinin bədii rəhbəri, Rusiya Federasiyasının Xalq artisti, dünya şöhrətli violonçel ifaçısı Sergey Roldugin Üzeyir Hacıbəyli X Beynəlxalq Musiqi Festivalının 18-26 sentyabr 2018-ci il tarixindəki bağlanış mərasimində, həmçinin həmin tədbir çərçivəsində Beynəlxalq Muğam Mərkəzində Rusiyanın T.Dokşitser adına "New Life Brass" ansamblının çıxışları yaddaqalan olub.

Qarşılıqlı mədəni əlaqələrin nümunəsi olacaq tədbirlər ötən il silsilə xarakteri daşıyıb. Belə ki, Moskvada Xilaskar İsa Məbədinin zalında Müslüm Maqomayevin xatirəsinə həsr edilən "Sən mənim melodiyamsan" adlı konsert proqramı təqdim olunub. Ötən ilin noyabrında Bakıda keçirilmiş IX "START" Beynəlxalq Qısa Filmlər Festivalı çərçivəsində Rusiya istehsalı olan filmlər nümayiş edilib. VII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda isə Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisinin açılışından dörd gün sonra isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında C.Verdinin "Traviata" operası nümayiş olunub. Rusiyanın Yekaterinburq şəhərində Sverdlovsk Dövlət Akademik Musiqili Komediya Teatrının 85 illiyi münasibətilə "Təcrübədən kamilliyə" adlı Musiqili Teatrların Beynəlxalq Forumunda Azərbaycan Dövlət Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin məruzəsi dinlənilib.

Hər iki ölkə arasında humanitar əməkdaşlıq bu il də müxtəlif tədbirlərlə davam etdirilir. P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının kamera zallarında Azərbaycan musiqiçilərinin iştirakı ilə silsilə konsertlərin təşkili planlaşdırılıb. Tədbirlər çərçivəsində tanınmış pianoçu, Əməkdar artist, Türkiyədə yaşayan həmyerlimiz, professor Gülşən Ənnağıyevanın və gənc skripka ifaçısı, Xorvatiya Simfonik Orkestrinin konsertmeysteri Osman Eyublunun iştirakı ilə Moskva Dövlət Konservatoriyasında konsertlər keçirilib.

Bu ilin aprelində Bakıda keçirilən Mstislav Rostropoviç X Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış rusiyalı pianoçu Boris Berezovskinin solo konsertinin, həmçinin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dünya şöhrətli xoreoqraf, Rusiya Federasiyasının Xalq artisti Boris Eyfmanın rəhbərliyi ilə Sankt-Peterburq Dövlət Akademik Balet Teatrının "Günahın o tayında" tamaşası nümayiş etdirilib.

Humanitar əməkdaşlıqdan söz düşmüşkən qeyd etməliyik ki, Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə keçirilən Bakı Beynəlxalq Humanitar forumları artıq bütün dünyada aktual problemlərin, müasir cəmiyyətlərin inkişaf məsələlərinin müzakirə olunduğu qlobal platforma kimi tanınır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ilin aprelində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu və bu əlaqələrin inkişafında humanitar sahənin əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamışdı.

Valentina Matviyenko da öz növbəsində ölkəmizdə son beş ildəki müsbət dəyişikliyə diqqət çəkərək demişdi: "Bakının necə inkişaf etməsinə heyran qaldığımı növbəti dəfə bildirməyə bilmərəm. Mən Bakıda, Azərbaycanda 5 il idi ki, olmamışdım. Çox böyük dəyişikliklər var - heyrətamiz, yeni binalar, nadir memarlıq nümunələri. Bilirsiniz, düşünürəm ki, əgər Heydər Əliyev sağ olsaydı, Azərbaycanda baş verən bu dəyişikliklərlə çox fəxr edərdi. Həqiqətən də, mən çox yerlərdə, dünyanın bir çox ölkələrində olmuşam, bu cür dinamik, düşünülmüş inkişafa, belə gözəlliyə çox az yerdə rast gəlinir..."

Azərbaycan Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif edilən Valentina Matviyenko ölkəmizdə rus dilinə olan münasibətlə bağlı da fikrini açıqlamışdı. Qonaq ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük töhfə verdiyini xüsusi vurğulamışdı: "Humanitar əməkdaşlığın inkişafına Azərbaycanın Birinci vitse-prezidenti, çox hörmətli Mehriban xanımın töhfəsini biz çox yüksək qiymətləndiririk. Azərbaycanda rus dilinin qorunub saxlanılmasını və təbliğini Rusiyada yüksək qiymətləndirirlər. Azərbaycanda Rusiyanın aparıcı ali məktəblərinin filialları, rus dilində təhsil verən məktəblər fəaliyyət göstərir, uzun illər ərzində Rus Dram Teatrı və digər mədəniyyət ocaqları işini davam etdirir. Bütün bunlara görə rusiyalıların hamısının adından Azərbaycan Respublikasının rəhbərliyinə dərin minnətdarlığımı bildirmək istəyirəm".

Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşləri, hər iki tərəfdə keçirilən mədəniyyət tədbirləri dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Tarixin gözü səndə...



Görkəminə görə nadir olan bu ağac Bakıda, Xəzərin sahilində, Bayraq Meydanının yaxınlığında ucalır. Yaşının nə qədər olduğunu söyləyən yoxdur. Əslində isə bunu bilmək heç də çətin deyil. Onun təbiətin əli ilə nizamlı, səliqəli şəkildə neçə-neçə hissəyə ayrılmış gövdəsinə nəzər yetirmək kifayətdir. Hər hissə bir onillikdən, qərinədən, kim bilir, bəlkə də əsrdən "danışır"?!

Bu gün isə o, getdikcə gözəlləşən, meqapolisə çevrilən paytaxt şəhərimizin timsalında müstəqil Azərbaycanın inkişafına, yüksəlişinə "tamaşa edir". Yaxşı mənada tanınmaz olan, dünyanın ən əsrarəngiz parkları sırasında özünə yer alan Dənizkənarı Milli Park, Xəzərdə üzən ən müasir gəmilər, hər tərəfdə boy qaldıran göydələnlər... Bir də qələbəlik, sahilə dincəlməyə gələn Bakı sakinləri və şəhərin saysız-hesabsız qonaqları... Bunlar bu qoca nəhəngin hər gün gördüyü mənzərələrdir. Yaxın keçmişdəki kiçik, sadə yelləncəkləri əvəz edən böyük fırlanğıc isə gözü qarşısında fasiləsiz hərəkət edərək ona zamanın, irəliləyişin, yüksəlişin sürətindən xəbər verir...

*Foto Fərman BAĞIROVUNDUR, "Azərbaycan"*

# Rəqəmsal dünyanın ilk təcrübəçiləri

## "Azercell-Lab" təcrübə proqramının qalibləri elan edildi

Ölkəmizdə telekom sahəsinin inkişafı və gənclərin bu sahəyə olan marağını artırmaq istiqamətində bir sıra layihələr həyata keçirən "Azercell Telekom" MMC-nin may ayında elan etdiyi "Azercell-Lab" ödənişli təcrübə proqramının ilk qalibləri artıq rəqəmsal dünyaya səyahətlərinə yola düşdülər.




Təcrübəçilər iyul ayının 1-dən etibarən "İT-lab" və "Biznes-lab" inkubasiya mərkəzlərində telekom sahəsinin ən son trendləri ilə tanış olmaq fürsətindən yararlanaraq nəzəri biliklərini həyata keçirir, peşəkar mühitdə şirkətin real layihələrində iştirak edirlər. Təcrübə Proqramının ilk həftəsində "Azercell" Akademiyasının professional tədrisçiləri tərəfindən "Azercell-Lab"ın rezidentlərini yeni nəsil rəqəmsal texnologiyalar ilə yaxından tanış etmək üçün xüsusi master klaslar və təlimlər təşkil edilib. Qaliblər 6 ay müddətində biznes və İT sahələrində zəngin təcrübəyə malik olan aparıcı ekspertlər ilə birlikdə çalışaraq ölkəmizin ən arzuolunan iş məkanlarından biri olan "Azercell" şirkətində karyeralarında ilk addımlarını atmaq üçün əvəzolunmaz fürsət əldə ediblər. Rəqəmsal Texnologiyalara həvəsi olan gənclərə dəstək olmaq və onların telekommunikasiya sahəsinə marağını artırmaq məqsədi daşıyan bu layihənin qalibləri 600-dən çox namizəd arasında akademik fəaliyyəti və peşə bilikləri əsasında dəyərləndirilərək seçilib. Bu vaxtadək Azərbaycanın müxtəlif universitetlərində təhsil alan 190-dan çox tələbə "Azercell"də təcrübə keçmək fürsətindən yararlanıb. Onlardan 27-si isə artıq "Azercell" ailəsinə qoşulub.

Qeyd edək ki, müvəffəqiyyətlə təhsil alan və fərqlənməyi bacaran tələbələrə xüsusi qayğı nümayiş etdirən "Azercell" şirkəti güclü liderliyin, korporativ mədəniyyətin və insan resurslarının idarə olunması təcrübəsinin davamlı inkişafının göstəricisi olaraq "Investors in People" (IIP) - İnsana Sərmayə Standartının tələbləri üzrə dəyərləndirilərək Qızıl sertifikatına sahib oldu. "Azercell" ölkəmizdə Qızıl sertifikat qazanan ilk qurum olmaqla yanaşı, MDB məkanında belə bir uğura imza atan yeganə telekommunikasiya şirkətidir.

*"Azərbaycan"*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən LOT 12 - Fasad təmizləmə qurğularına texniki xidmətin satın alınması üzrə "Avropa Lift Sistemləri" MMC qalib olmuşdur.

Qalib şirkətlə 22 iyul 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Hərbi Prokurorluğu 3 LOT üzrə təkliflər sorğusu elan edir

LOT 1 - Mərkəzi Aparatın inzibati binalarında, eləcə də cəbhəyanı zonada yerləşən Tərtər, Füzuli və Qarabağ hərbi prokurorluqlarının inzibati binalarında təmir işləri.

LOT 2 - Hərbi Prokurorluğun Mərkəzi Aparatının, Füzuli, Qarabağ, Qazax, Sumqayıt, və Tərtər hərbi prokurorluqlarının inzibati binalarında yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi.

LOT 3 - Mərkəzi Aparatın dörd mərtəbəli inzibati binasında kondisioner sisteminin tam şəkildə yenidən qurulması.

Sənədlər 25 iyul 2019-cu il saat 10:00-dan 29 iyul 2019-cu il saat 10:00-dək qəbul olunur.

Ünvan: Ceyhun Hacıbəyli 26. Əlaqə telefonu: (012) 449-45-66.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı, yerli orqanları və tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

**LOT 2:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

**İştirak haqqı: LOT 1 üzrə 400,00 (dörd yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu : - 4**
**İştirak haqqı: LOT 2 üzrə 300,00 (üç yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142340**
**Büdcə səviyyəsinin kodu : - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26.08.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.08.2019-cu il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

### *açıq tender elan edir*

**Tender 5 LOT üzrə keçirilir:**

LOT 1 - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün dəftərxana ləvazimatlarının satın alınması

LOT 2 - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün çap materiallarının satın alınması

LOT 3 - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi işlərinin satın alması

LOT 4 - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün sənədli filmin çəkilməsinin satın alınması

LOT 5 - AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025, Bakı şəh., Xocalı pr.30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı. Əlaqə nömrəsi: 012-490-13-29.

İştirak haqqı hər LOT üzrə 300 (üç yüz) manat

**Az 1025, Bakı şəh., Xocalı pr.30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **31 iyul 2019-cu il saat 10:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **08 avqust 2019-cu il saat 12:00-a** qədər Az 1025, Bakı şəh., Xocalı pr.30 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **09 avqust 2019-cu il saat 14:00-da** Bakı şəh., Xocalı pr.30 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşları Hafiz Babayev, Ülviyyə Abdullayeva, Mehman Namazov, Afaq Həsənova, Sədaqət Cabbarova, Mübariz Əsgərov, Sevinc Güləliyeva, Pərvanə Həsənova, Gövhər Hüseynova, Sevinc Yusifzadə, Nəzrin Əliyeva, Nigar İsmayılova, Lətif Babayev, Yaqut Bədirova, Yahu Mahmudova-Qurbanova və Tahirə Mirbağırova Aidə Əhmədovaya atası

**FAZİL MURADXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Əmir Bayramova bacısı

**OFELİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ ZAHİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyalarının İttifaqının üzvləri Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Hərbi Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Əmir Bayramova bacısı

**OFELİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə şəhər Kəpəz Rayon Məhkəməsinin sədri və kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Masallıdan Allahverdi Novruzov Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bərdə Rayon Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəki Regional Ədliyyə İdarəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 2415
Qiyməti 40 qəpik